# ADP-dən Kremlin ünvanına sərt bəyanat


SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№32 (3371) 9 Sentyabr / 2025-ci il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik


**ANA XƏBƏR**



## AZAL Rusiya prokurorluğuna haqq ödəyir

# Sahibkarları indi də elektron tərəzi ilə soyurlar...

Qanunsuz olaraq cərimə yazıldığını iddia edən daha bir vətəndaşımız etiraz edir: "7 000 min manat cərimə ödəmişəm, yenə qanunsuz olaraq 1200 manat cərimə yazıblar"




**GÜNÜN NƏBZİ**

Müsahibə

## "Ölkədə referendum keçirilməlidir"



Vahid Əhmədov: "Azərbaycanda Türkiyə modelinə uyğun bir sistem yaratmaq olar" 8

Gündəm

## Talıbovun kadrları hələ də Naxçıvanda "at oynadır"

Səhiyyə Nazirliyində mühüm vəzifə tutan Hacı Əliyev 3 il sonra əvvəlki işinə necə qaytarıldı? 3

Fakt

## "Ricon" MMC aylardır işçilərin maaşını vermir

Müşviq Səfərəliyev: "Aprel, may, iyun aylarının əmək haqlarını və məzuniyyət pulunu hələ ala bilməmişəm" 2

Toplum

## Məcburi köçkünü evindən çıxarmaq istəyən vətəndaş təhdid olunur

"Sizə son xəbərdarlıqdır, əks təqdirdə olacaqlardan mən günahkar deyiləm" 4

Toplum

## Nadir xəstəliyi olan azyaşlının əlilliyi ləğv edildi

"Həkimlər bizi hədələyir ki, səsini çıxarsan, 2 ildə aldığınız pulları geri ödəyəcəksiniz" 4

Hüquq

## Elşad Abdullayevdən ilginc fırıldaq



ABU-nun satışa çıxarılan Moskva filialı necə yaradılıb? 6

Hüquq

## Milyonlarla mənimsəmə, Bakıda, Türkiyədə bahalı əmlak, şirkətlər...



14 il cəza alan baş direktorun cinayət dosyesi... 6

Fakt

## Xaçmaz gömrüyündən ölkəyə heyvan keçirilməsi qadağan olunub

"Bu sahə rəis Pərviz Rəhimovun qohumunun monopoliyasındadır"

"Hürriyyət"in redaksiyasına adlarının açıqlanmasını istəməyən bir qrup sürücü tərəfindən şikayət daxil olub. Şikayətçilər bildirir ki, Rusiyanın Stavropol şəhərindən Azərbaycana xırdabuynuzlu heyvanların gətirilməsinə rəsmi şəxslər tərəfindən süni maneələr yaradılır: "Bildirmək istəyirik ki, bizim xırdabuynuzlu heyvanları Dağıstan Gömrük Komitəsindən keçirməyə qoymurlar... 2

Fakt

## Göyçayda bələdiyyə sədrinin adı keçən torpaq qalmaqalı

Ləkçıplaq kənd sakini Günel Rüstəmova ona məxsus torpaq sahəsinin Gülnar Mirzəliyeva tərəfindən zəbt olunduğunu deyir

Göyçay rayonu, Ləkçıplaq kənd sakini Rüstəmova Günel Qubad qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə rəsmi qurumlara müraciət edən şikayətçinin məktbunu olduğu kimi dərc edirik: "Mən, Rüstəmova Günel Qubad qızı, Göyçay rayonu, Ləkçıplaq kəndində tənha yaşayıram. Aqrar İslahat Komissiyası tərəfindən 1998-ci ildə bizim ailəyə verilmiş 1,4508 ha torpaq sahəsinin üzərində meyvə ağacları əkib-becərmişəm... 2

Hürriyyət
SİZİN ÜÇÜN QƏZET

№32 (3371) 9 Sentyabr / 2025-ci il    Həftədə 1 dəfə çıxır    Qiymәti: 60 qəpik

Əyləncə səhifəsi



## Sərxoşlar üçün ən yaxşı ölkələr...

**Əgər görməli yerləri gəzdikdən sonra - cüzdanınızı boşaltmadan bir stəkan şərab və ya soyuq pivə ilə səyahət etmək arzusundasınızsa, o zaman yeni araşdırma sizin üçündür.**

Belə ki, xarici ekspertlər spirtli içkilərin orta qiymətlərini, adambaşına düşən şərab istehlakını və şəhər üzrə barların sayını nəzərə alaraq içənlər arasında ilk 10 ölkənin reytinqini tərtib ediblər.

Cəmi 2,50 avro (2,17 funt sterlinq) olan pintlər, sərfəli qiymətlərlə yerli şərablar və çimərlik tətili üçün mükəmməl iqlimlə Portuqaliya siyahıya başçılıq edir. Lissabonda siz məşhur ginjinhanı - stəkanda bir parça meyvə ilə turş albalı likörünü dada bilərsiniz.

İspaniya - Madriddə bir pint təxminən 3,40 funt sterlinqdir və sahil şəhərlərində daha ucuzdur. Xüsusilə Sevilya və Barselonada adambaşına çoxlu bar var.

İtaliya sübut edir ki, keyfiyyətli spirt bahalı olmamalıdır: bir şüşə şərab təxminən 5 avro, pivə 6 avrodur.

Avropa xaricində:

- ABŞ - Nyu Yorkda, Orlandoda, Neşvilledə müxtəlif barlar və güclü sənətkarlıq pivə mədəniyyəti.
- Gürcüstan - şərablar, dadlı ənənəvi yeməklər
- Avstriya - sərfəli qiymətlər, keyfiyyətli spirt və rahat spirt qanunlarının birləşməsidir.
- Çexiya - Avropada ən yüksək pivə istehlakı və pint üçün 2,10 avro civarında ucuz pivə.
- Amsterdam - rahat kafe və gecə barları.
- Almaniya - Berlində bir pintin qiyməti 3,90 avro civarındadır və pivə mədəniyyəti güclüdür.
- Rumıniya - tuic?, gavalı arağı və böyük qutularda ucuz pivə ilə adambaşına düşən ən çox spirtli içki istehlak edən ölkədir.

# Bu tərəvəz sizi 100 yaşa çatdıra bilər...

**Mütəxəssislərin fikrincə, ispanaq sağlam qidalanmada ən vacib tərəvəzlərdən biridir və uzunömürlülüyə müsbət təsir göstərir.**



Hurriyyet.az ispanağın əsas faydalarını təqdim edir:

Antioksidant tərkibi: C vitamini, lutein və zeaksantin sərbəst radikalları neytrallaşdırır, iltihabı azaldır və hüceyrə sağlamlığını qoruyur.

Təzyiqin normallaşması: Tərkibindəki nitratlar qan təzyiqini tənzimləyir.

Xərçəng riskinin azalması: Fitonutrientlər bəzi xərçəng növlərinə qarşı qoruyucu təsir göstərir.

Göz sağlamlığı: Lutein və karotinoidlər tor qişanı möhkəmləndirir və yaşla bağlı dəyişikliklərdən, o cümlədən distrofiya riskindən qoruyur. Bu xüsusilə kompüter qarşısında çox vaxt keçirənlər üçün faydalıdır.

Sümük möhkəmliyi: İspanaq K vitamini ilə zəngindir, bu da sümüklərin sağlamlığını dəstəkləyir və maddələr mübadiləsini gücləndirir.

Sinir sistemi: Mineral və mikroelement kompleksi əsəb sisteminə müsbət təsir edir, sakitliyi və iş qabiliyyətini bərpa etməyə kömək edir.

**Necə istifadə etmək olar?**

İspanağı həm təzə, həm də dondurulmuş formada salatlarda, smuzilərdə və isti yeməklərdə istifadə etmək mümkündür. Onu gündəlik rasiona əlavə etmək həm menyunu zənginləşdirir, həm də uzunmüddətli sağlamlığa töhfə verir.

## Bu ölkədə kitab oxuyanların həbs müddəti azaldılacaq...



Özbəkistan Senatı xüsusi siyahıdan kitab oxumağa görə məhkum edilmiş şəxslərin həbs müddətinin azaldılmasını nəzərdə tutan qanunu təsdiqləyib.

Hurriyyet.az xarici KİV-ə istinadla bildirir ki, bu barədə parlamentin yuxarı palatasının mətbuat xidmətinin bəyanatından məlum olub.

Sənədə əsasən, ölkənin Cinayət Məcəlləsinə islah yoluna qədəm qoymuş məhkumların cəzasının azaldılması imkanını nəzərdə tutan yeni maddə daxil edilir.

**Həvəsləndiricilərdən biri məhkumların təsdiq edilmiş ədəbiyyatı oxumasıdır, bundan sonra:**

*- hər oxunan kitab üçün müddət 3 gün azaldıla bilər;*

*- lakin ildə 30 gündən çox olmamalıdır.*

Ədəbiyyatı özünüz seçə bilməyəcəksiniz. Kitabları Respublika mənəviyyat və maarifçilik mərkəzi təsdiqləyib. Yekun qərarı Komissiya verəcək.

Həmçinin qeyd olunub ki, bu tədbir ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər istisna olmaqla, yalnız şərti olaraq vaxtından əvvəl azad olunmaq hüququ olan şəxslərə şamil edilir.

Qanunvericiliyə edilən bu dəyişikliklər 13,5 mindən çox məhkuma şamil ediləcək.

Mütəxəssislər həbsxanalarda maarifləndirmə işinin səmərəliliyinin artırılmasını və cinayətlərin təkrarlanmasının qarşısının alınmasını gözləyirlər.

## Yatmazdan əvvəl bu meyvə yaxşı yuxuya getməyə kömək edir

**Yuxu problemləri bir çoxlarına tanış vəziyyətdir. Bunun səbəbləri müxtəlif ola bilər: otaqda isti hava, ümumi narahatlıq və s.**



Lent.az xarici mediaya istinadla bildirir ki, ancaq qidalanma üzrə mütəxəssisin sözlərinə görə, yuxunu yaxşılaşdırmağın sadə və dadlı bir üsulu var. Yatmazdan əvvəl adi bir meyvə - üzüm yemək.

Hansı meyvə yuxusuzluqla mübarizədə kömək edir?

Dietoloq Brenda Madol bildirib ki, bəzi qidalar tərkibində melatonin saxlayır bu hormon bizə yuxuya getməyə kömək edir. Melatonin orqanizmdə təbii olaraq istehsal olunur: onun səviyyəsi axşam artır və yuxu vaxtının gəldiyini göstərir, gündüz isə azalır. Bəli, yuxusuzluq üçün sintetik melatonin əlavələri də mövcuddur, lakin onu adi qidadan da almaq mümkündür.

Mütəxəssisin sözlərinə görə, üzüm yatmazdan əvvəl ideal seçimdir. O, melatoninin təbii mənbəyidir və bizim "daxili saatlarımızı" - yəni sirkadiyal ritmləri tənzimləməyə kömək edir.

"Axşam yedikləriniz yuxunuzun keyfiyyətinə böyük təsir edə bilər. Bəzi qidalar melatonin və serotonin istehsalını dəstəkləyir. Bu hormonlar yuxu və oyanıqlıq dövrünü tənzimləyir. Düzgün axşam qəlyanaltısı daha tez yuxuya getməyə və möhkəm yatmağa kömək edə bilər", - Brenda izah edib.

### Yatmazdan əvvəl daha nə yemək olar?

Üzüm yuxunu yaxşılaşdıran yeganə meyvə deyil. Mütəxəssis həmçinin məsləhət görür:

Kivi serotoninin səviyyəsini artırır, rahatlamağa kömək edir. Banan əzələləri rahatladan maqneziumla zəngindir. Əsas qayda bu meyvələri çox yeməməkdir.

"Əsas məqam axşam qəlyanaltısının yüngüllüyüdür. Yatmazdan əvvəl çox yemək və ya ağır, yağlı qida qəbul etmək əksinə, istirahəti poza bilər. Bir ovuc badam, kiçik bir kasa yulaf sıyığı və ya bir dənə kivi yuxu üçün ideal təbii vasitədir".

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.




## Xaçmaz gömrüyündən ölkəyə heyvan keçirilməsi qadağan olunub

"Bu sahə rəis Pərviz Rəhimovun qohumunun monopoliyasındadır"

**"Hürriyyət"in redaksiyasına adlarının açıqlanmasını istəməyən bir qrup sürücü tərəfindən şikayət daxil olub. Şikayətçilər bildirir ki, Rusiyanın Stavropol şəhərindən Azərbaycana xırdabuynuzlu heyvanların gətirilməsinə rəsmi şəxslər tərəfindən süni maneələr yaradılır:**

"Bildirmək istəyirik ki, bizim xırdabuynuzlu heyvanları Dağıstan Gömrük Komitəsindən keçirməyə qoymurlar. Bütün sənədlər qaydasında olsa da, heyvanları Azərbaycan ərazisinə buraxmırlar".

Hazırda sərhəddə gözləməyə məcbur qaldıqlarını deyən şikayətçilər əlavə edir: "Bizi artıq 12-13 saatdır sərhəddə gözlədirlər. Bizimlə yanaşı, heyvanlar da əziyyət çəkir, neçə saatdır qapalı yerdə qalıblar. Nə bizə, nə də heyvanlara yazıqları gəlir.

Bizdə olan məlumata görə, buna birbaşa Xaçmaz Gömrük İdarəsinin rəisi Pərviz Rəhimov göstəriş verib. Bu oyunu isə bizim başımıza Pərviz müəllimin qohumu olan Hüseynov Teyyub Məmməd oğlu açdırır. Səbəbi bizə də bəlli deyil. Belə deyirlər ki, o, bu sahədə monopolist şəxsdir, bu səbəbdən də başqa kimsəyə ölkəyə heyvan gətirməyə icazə vermirlər.

Bəzi işçilər bizə etiraf edib ki, Hüseynov Teyyub Məmməd oğlu tapşırıq verib. Onların sözlərindən belə çıxır ki, Teyyub müəllimdən başqa Stavropoldan Azərbaycana kimsə heyvan gətirə bilməz, heç kimə icazə verilmir.

Qeyd edək ki, heyvanların hamısının sənədləri və yoxlanışları olunub. Dözə bilməyən bir neçə heyvanımız artıq tələf olub, külli miqdarda ziyana düşmüşük".

Şikayətçilər qeyd olunan faktlarla bağlı video-görüntüləri də redaksiyamıza təqdim edib.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Göyçayda bələdiyyə sədrinin adı keçən torpaq qalmaqalı

## Ləkçıplaq kənd sakini Günel Rüstəmova ona məxsus torpaq sahəsinin Gülnar Mirzəliyeva tərəfindən zəbt olunduğunu deyir



**Göyçay rayonu, Ləkçıplaq kənd sakini Rüstəmova Günel Qubad qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə rəsmi qurumlara müraciət edən şikayətçinin məktbunu olduği kimi dərc edirik:**

"Mən, Rüstəmova Günel Qubad qızı, Göyçay rayonu, Ləkçıplaq kəndində tənha yaşayıram.

Aqrar İslahat Komissiyası tərəfindən 1998-ci ildə bizim ailəyə verilmiş 1,4508 ha torpaq sahəsinin üzərində meyvə ağacları əkib-becərmişəm. Həmin bağ hər il məhsul verir.

Ləkçıplaq bələdiyyəsinin sədri Gülnar Mirzəliyeva mənim uzun illərdir əkib-becərdiyim bağın 0,20 ha hissəsini, guya bələdiyyəyə məxsus olduğunu bildirərək, başqa şəxsə satmaq niyyətindədir. Hətta heç bir qanuni əsas və məhkəmə qətnaməsi olmadan, özbaşına gəlib həmin hissəni əhatəyə alaraq bağlayıb.

Mən isə bu barədə müvafiq orqanlara şikayətlər edib, obyektiv araşdırılmasını xahiş etmişəm.

Qeyd etmək istəyirəm ki, bələdiyyə sədri Gülnar Mirzəliyeva dəfələrlə barəmdə polis şöbəsinə şikayətlər etmiş, həmçinin Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən əraziyə baxış keçirilmişdir. Lakin aparılmış yoxlamalar zamanı heç bir qanunsuzluq aşkar edilməmişdir. Ölçü işləri düzgün aparılarsa, həmin yerdə bələdiyyəyə məxsus torpaq sahəsinin olmadığı aydın görünəcəkdir.

Həmin torpaq Aqrar İslahat Komissiyasının 1998-ci il tarixli qərarı ilə bizim ailəyə verilmişdir. Azərbaycanda bələdiyyələr isə 1999-cu ilin dekabr ayında yaradılmış, 2000-ci il tarixdə fəaliyyətə başlamışdır. Həmin torpaq bizə veriləndən sonra sərhədləri müəyyən edilərək ətrafına bərə qazılmış, bağ salınmışdır.

İndi, 26 ildən sonra belə bir adam ortaya çıxıb hegemoniya edərək özbaşına işlər görüb qanunsuzluqlara yol verir. Onun nə səlahiyyəti var ki, məhkəmə qərarı olmadan özbaşına qanuni sənədlə mənə məxsus olan torpağı əhatəyə alıb, ətrafını bağlayır?! Mənim əlimdə torpağımın qanunu sənədləri var, ancaq bələdiyyə sədri Gülnar Mirzəliyevanın əlində heç bir sənədi yoxdur, özbaşına iş görür.

Bu məsələni yerində, mənim iştirakımla Prokurorluğun, Ədliyyə Nazirliyinin və Reyestr Xidmətinin məsul vəzifəli əməkdaşları obyektiv araşdırıb, qanuni rəy verib, hegemonluq edən bələdiyyə sədrinin barəsində qanuni tədbirlər görməlidirlər.

Bir daha qeyd edirəm ki, həmin ərazinin bələdiyyəyə heç bir aidiyyəti yoxdur.

Azərbaycan Respublikasının Baş Prokurorluğundan, Ədliyyə Nazirliyindən və Əmlak Məsələləri Dövlət Komitəsindən çox-çox xahiş edirəm, mənim qanuni mülkiyyətimdə olan 1,4508 ha torpaq sahəsinin sərhədləri dövlət reyestrində dəqiqləşdirilsin və özbaşına qanunsuz iş görən Ləkçıplaq bələdiyyəsinin sədri Gülnar Mirzəliyevanın barəsində qanuni və ciddi tədbirlər görülsün".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**


AZƏRBAYCAN RESPUBLİKASI - REPUBLIC OF AZERBAIJAN
Şəxsiyyət vəsiqəsi - IDENTITY CARD
SOYADI/SURNAME
RÜSTƏMOVA
ADI/GIVEN NAME
GÜNEL
ATASININ ADI/PATRONYMIC
QUBAD QIZI
CİNSİ/SEX Q/F
VƏTƏNDAŞLIĞI/NATIONALITY AZƏRBAYCAN
DOĞULDUĞU TARİX/DATE OF BIRTH 28.09.1979
VƏSİQƏNİN NÖMRƏSİ/CARD NO
FƏRDİ İDENTİFİKASİYA NÖMRƏSİ/PERSONAL NO
ETİBARLILIQ MÜDDƏTİ/DATE OF EXPIRY 01.11.2032
VƏSİQƏ SAHİBİNİN İMZASI/HOLDER'S SIGNATURE
01.11.2032


AZƏRBAYCAN RESPUBLİKASI
ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ YANINDA
DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ XİDMƏTİ
Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən
ÇIXARIŞ

| | |
|---|---|
| Hüququ rəsmiləşdirilən şəxs | Rüstəmova Günel Qubad qızı |
| Daşınmaz əmlakın növü | Torpaq sahəsi |
| Daşınmaz əmlakın ünvanı (olduğu yer) | Göyçay rayonu, Ləkçıplaq kəndi |
| Daşınmaz əmlakın mülkiyyət növü | - |
| Daşınmaz əmlakın üzərində hüququn növü | - |
| Daşınmaz əmlakın ümumi sahəsi (kvadratmetrlə) | - |
| Torpaq sahəsinin mülkiyyət növü | Xüsusi |
| Torpaq sahəsi üzərində hüququn növü | Mülkiyyət |
| Torpaq sahəsinin kateqoriyası (məqsədli təyinatı) | Kənd təsərrüfatı təyinatlı torpaqlar |
| Torpaq sahəsinin (ölçüsü, hektarla) | 1.4508 |
| Daşınmaz əmlakın reyestr nömrəsi | 408013050766 |

Hüquq sahibləri

| Sıra № | Hüquq sahibinin adı | Payı | Qeydiyyat nömrəsi | Qeydiyyat tarixi |
|---|---|---|---|---|
| 1 | Rüstəmova Günəş Abdulla qızı | 1/4 hissə | - | - |
| 2 | Rüstəmova Sevda Qubad qızı | 1/4 hissə | - | - |
| 3 | Rüstəmova Nigar Qubad qızı | 1/4 hissə | - | - |
| 4 | Rüstəmova Günel Qubad qızı | 1/4 hissə | 2721003113 | 08.04.2021 |

Daşınmaz əmlakın dövlət reyestrində 95 nömrəli reyestr kitabının 44 nömrəli vərəqində qeydiyyata alınmışdır.


Torpaq sahəsinin planı
Miqyas 1:3000
Azərbaycan Respublikası
Əmlak Məsələləri Dövlət Komitəsi yanında
Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin
16 saylı Ucar Ərazi İdarəsi
Torpaq sahəsinin planı və ölçüsü
AA № 577409

# "Ricon" MMC aylardır işçilərin maaşını vermir

## Müşviq Səfərəliyev: "Məndən başqa 15 nəfər işçinin də pulunu vermirlər"

### "2025-ci ilin aprel, may, iyun aylarının əmək haqlarını və məzuniyyət pulunu hələ ala bilməmişəm"

**Gəncə şəhər sakini Səfərəliyev Müşviq Həsən oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

"Mən, Səfərəliyev Müşviq Həsən oğlu, yazaraq xahiş edirəm ki, müraciətimi aidiyyəti qurumlara çatdırasınız.

Bildirim ki, özüm Naxçıvan şəhəri, Şərur rayonunda anadan olmuşam. Qeydiyyat ünvanım isə Gəncə şəhəridir.

04.11.2023-cü ildə "Ricon" MMC şirkətinin Goranboy rayon, Dəliməmmədli şəhərində tikilən yasayış binasında mühafizəçi işinə başlamışam. Hər gün Gəncə şəhərindən gəlib-gedirdim. Ayda 4 gün istirahət günü verirdilər. Əmək haqqımı isə ABB bankın kartı ilə alırdım.

2025-ci ilin aprel, may, iyun aylarının əmək haqlarını və məzuniyyət pulunu hələ ala bilməmişəm. Soruşanda, deyirlər ki, pulumuz yoxdur.

Şirkətin rəhbəri Rəşad İsmayılov, müavini və digər şirkətin işçiləri eyni sözü deyirlər: "pul yoxdur". Bildirim ki, mən tək deyiləm. Belə ki, məndən başqa 15 nəfər işçinin də pulunu vermirlər.

İyun ayının 18-dən işdən çıxmışam. Qalan iş yoldaşlarım isə avqust ayına kimi işləyiblər.

Məsələ ilə bağlı Göranboy Rayon İcra Hakimiyyətinə, prokurorluğa və məhkəməyə müraciət etmişik. Lakin açıq şəkildə əmək haqlarımızı vermirlər. Heç bir qurum da onlara təsir edə bilmir". Məsələ ilə bağlı şirkətin rəhbər şəxsləri ilə əlaqə saxlamağa çalışdıq. Lakin telefon zənglərimiz cavabsız qaldı.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

**Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın Mətbuat Xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantıda ötən həftə ərzində baş verən ictimai-siyasi hadisələr müzakirə olunub.**

Toplantı iştirakçıları ilk növbədə Azərbaycanla Rusiya arasında olan münasibətlərin gərginliyi ilə bağlı geniş müzakirə aparıb. Müzakirələr zamanı ötən həftə ərzində də Rusiyanın bir çox rəsmi və qeyri-rəsmi dairələri tərəfindən Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini təhdid edən bəyanatların



# ADP-dən Kremlə qarşı sərt bəyanat

## Partiya Rusiyanı Azərbaycana qarşı imperial münasibətdən əl çəkməyə çağırdı

səsləndirilməsi qətiyyətlə pislənilib. Kremlin siyasi ideoloqlarından sayılan Aleksadr Duqin tərəfindən Rusiyada müsəlmanların zorakı yolla xristianlaşdırmağa edilən çağırışların İslam dəyərlərinə hörmətsizlik, Kremlin işğalçılıq siyasətinin ruporlarından biri teleaparıcı Solovyovun və başqalarının Azərbaycana qarşı xüsusi əməliyyatın keçirilməsinə, Azərbaycanı paçalayaraq İrana verilməsinə yönəlik çağırışların isə beynəlxalq hüquq normalarına, o cümlədən 22 fevral 2022-ci il tarixində Azərbaycanla Rusiya arasında imzalanan "Müttəfiqlik qarşılıqlı fəaliyyət haqqında Bəyannamə"nin prinsiplərinə zidd olduğu qeyd edilib. Eyni zamanda Rusiyanı sözsügedən Bəyannamənin prinsiplərinə uyğun olaraq həmin şəxslər barəsində qanuna müvafiq qaydada tədbir görməyə çağırıb.

İdarə Heyəti Azərbaycanla Rusiya arasında düşmənçilik münasibətlərinin formalaşmasını hər iki dövlətin maraqlarına zidd olduğunu vurğulayaraq, bu günkü münasibətlərin pozulmasının səbəbinin məhz Moskvadan qaynaqlandığını qeyd edib. İdarə Heyəti Rusiyanı Azərbaycana qarşı imperial münasibətdən əl çəkməyə çağırıb və bir daha Azərbaycanın Rusiya ilə qarşılıqlı faydalı əməkdaşlıqda maraqlı olduğunu bildirib.

İdarə Heyəti ötən həftə ATƏT-in Minsk qrupunun sentyabr ayının 1-dən ləğv olunması və onun struktur bölmələrinin cari ilin dekabr ayının 1-nə kimi bağlanacağı ilə bağlı təşkilatın Nazirlər Şurası tərəfindən verilən qərarı təqdir edib, bu hadisəni Azərbaycan-Ermənistan arasında sülhə doğru gedən yolda əhəmiyyətli addım kimi dəyərləndirib.

İdarə Heyəti həmçinin ötən həftə Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində baş tutan təmaslar ətrafında da müzakirə aparıb. Baş tutmuş təmasları və iki dövlət arasında sülhün əldə



edilməsi istiqamətində müsbət proseslərin inkişafını alqışlayıb, bu istiqamətdə təmasların davam etdirilməsinin, bölgədə sülhə və əmin-amanlığa nail olunması baxımından Azərbaycan-Ermənistan arasında münasibətlərin yeni səviyyəyə qaldırılmasının əhəmiyyətli olduğunu qeyd edib.

İdarə Heyəti ötən həftə Şanxay Əməkdaşlıq Sammitində Azərbaycanın həmin təşkilata üzvlüyünə Hindistan tərəfindən blok qoyulması məsələsinə də diqqət çəkib. İdarə Heyəti Azərbaycanın adı çəkilən təşkilata üzv qəbul edilməməsini böyük bir facıə kimi görmədiyini və ölkəmizin milli maraqlarına ciddi ziyan vurmadığını qeyd edib, eyni zamanda Azərbaycanın daha böyük beynəlxalq birliklərdə iştirakının zəruriliyini qeyd edib.

İdarə Heyəti ictimai müzakirələrdə 2025-ci ilin "Konstitusiya və Suverenlik" ili elan edilməsi naminə və 44 günlük Vətən müharibəsində qələbimizin 5 illik yubileyi şərəfinə ölkədə genişmiqyaslı Amnistiya Aktının qəbul edilməsi təşəbbüslərini alqışlayıb, ölkədə vətəndaş həmrəyliyini gücləndirmək, daxili ictimai-siyasi sabitliyi təmin etmək məqsədilə siyasi məhbus kimi tanınan şəxsləri də əhatə edən geniş Amnistiya Aktının qəbul edilməsinin zəruriliyini bildirib.

İdarə Heyəti sonda partiyanın cari fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edib.

**Hazırladı: KƏNAN**

# Talıbovun kadrları hələ də Naxçıvanda "at oynadır"

## Səhiyyə Nazirliyində mühüm vəzifə tutan Hacı Əliyev 3 il sonra əvvəlki işinə necə qaytarıldı?



**Adının açıqlanmasını istəməyən Naxçıvan şəhər sakini şəxs tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, Naxçıvan MR Ali Məclisinin sabiq sədri Vasif Talıbovun kadrları yenidən vəzifəyə gələrək, sakinlərə zülm edirlər:**

"Hörmətli redaksiya!

Diqqətinizə çatdırım ki, Naxçıvanda vəziyyət olduqca acınacaqlıdır. Belə ki, Talıbovun köhnə kadrları yenidən vəzifəyə gələrək, MR-də "at oynadırlar". Millətin bir tikə çörəyinə bais olurlar.

Vasif Talıbovun hakimiyyəti dövründə Hacı Əliyev (indi soyadını dəyişib Hacı Alısoy edib) Səhiyyə Nazirliyinin əczaçılıq sektorunda vəzifədə işləyirdi. Aptek sahiblərinin qənimi idi. Apteklərdən hər ay 300-500 manat pul yığırdı. Kim pul vermirdisə, şərlənib həbs etdirilirdi.

Rəsmi olaraq 800 manat əmək haqqı alan Hacı Alısoy çox qısa müddətdə 45 min manata yeni avtomobil, bahalı evlər aldı. Tez-tez xaricə istirahətə getdi. Rejim dağılandan sonra isə bunu işdən çıxardılar. Bütün aptek sahibləri sevindi, hətta bəziləri qonaqlıq verdilər ki, belə bir adamdan canımız qurtardı.

İşlədiyi vaxtda özünə 150 min manata obyekt də almış və aptek olaraq istifadəyə vermişdi. Hər kəs üçün maraqlı idi ki, dünən vəzifəyə gələn insan qısa müddətdə necə bu qədər varlana bilər?! Bir çox insanlar fikirləşirdilər ki, DTX bu adamı da çağırıb, ondan bu qədər var-dövləti necə yığdığını soruşacaq. Əksinə, ona "gözün üstə qaşın var" deyən olmadı. Hətta 3 ildən sonra yenidən Səhiyyə Nazirliyindəki vəzifəsinə qayıtdı. Və yenidən "işğaldan azad olmuş" apteklər "işğala məruz qaldı". Öz yaxın qohumunun dediyinə görə, külli miqdarda rüşvət verərək, öz köhnə işinə qaytarılıb.

Bu adam qanunları heçə sayaraq, bir neçə qadın işçisini də götürüb, aptek sahiblərinin canına düşür. Gecə saat 11-də yoxlama olar?

Bu adam vəzifədən getməyincə biz sakinlərin günü qara olacaq. Biz nə qazanırıq ki, hələ hər ay bu adama əlavə pul da verək?! Hər yerdə olduğu kimi, Naxçıvanda da addımbaşı aptek var...

Mən sizin qəzet vasitəsilə rəsmi qurumlara müraciət edirəm. Xahiş edirəm, bu adamın - Hacı Əliyevin qanunsuz əməllərindən bizim canımızı qutarın".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**




# Nadir xəstəliyi olan azyaşlının əlilliyi ləğv edildi

## Ucar sakini Nəsimi Xasməmmədov: "Həkimlər bizi hədələyir ki, səsini çıxarsan, 2 ildə aldığınız pulları geri ödəyəcəksiniz"

**Ucar rayonu, Qazıqumlaq kənd sakini Xasməmmədov Nəsimi Şomul oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, nəvəsi Xasməmmədli Mələk Pərviz qızının əlilliyə görə müavinatı qanunsuz olaraq kəsilib:**

"Mən, Xasməmmədov Nəsimi Şomul oğlu, yazaraq bildirirəm ki, şəhid qardaşıyam.

Nəvəm Xasməmmədli Mələk Pərviz qızı ağır xəstəlikdən əziyyət çəkir. 1 yaşından bu uşaqda fasilələrlə qızdırma olurdu. Bakı şəhərində gəzdirmədiyimiz yer qalmayıb, uşağın dərdini tapa bilmirdilər. Yüksək qızdırma, halsızlıq, səpkilər, qarın və ürək nahiyyələrində daim ağrılar olurdu. 6 nömrəli xəstəxanada Sevil həkimin məsləhəti ilə genetik analiz verdik. Həkimin şübhələndiyi kimi, nəvəmdə "Aralıq dənizi qızdırması" xəstəliyi, yəni FMF xəstəliyi aşkarlandı.

Həmçinin, başqa yerlərdə də qan analizini verdik. Qlikoz difsitli anemiya daşıyıcılığı da aşkarlandı. Həmin vaxtdan etibarən uşaq Mərkəzi Klinik Xəstəxanada, həkim Sevda Mustafayevanın yanında müalicə alır.

2022-ci ilin sentyabr ayında nəvəm stasionar qaydada Respublika Klinik Uşaq Xəstəxanasına yatırıldı. Daha sonra "Forma 88" hazırlanıb, "VTEK"-ə göndərildi.

2022-ci il, noyabr ayının 11-də nəvəmə 3 dərəcəli əlillik təyin olundu.

2024-cü ilin sentyabr ayında nəvəm müalicə üçün yenidən Respublika Klinik Uşaq Xəstəxanasına yatırıldı. Sənədlər hazırlanıb, yenə "VTEK"ə göndərildi. Bu dəfə nazirlik imtina cavabı verdi. Nəvəmi də götürüb, Əlilliyin Bərpası Mərkəzinə getdim. Orada bildirdilər ki, sənədlər natamam doldurulub. Sənədlərini yenidən nazirliyə göndərdik. Bu dəfə də imtina verdilər.

Daha sonra isə bildirdilər ki, 2022-ci ilin qərarına əsasən, sizin uşağın xəstəliyi əlillik meyarlarına uyğun deyil. Sual verdim ki, necə olur, həmin vaxtda 2 il əllik almışıq? Həkimlər bizi hədələyərək bildirdilər ki, səsini çıxarsan, sənədləri yoxlanışa göndərəcəyik, 2 ildə aldığınız pulları geri ödəyəcəksiniz. Bu sözləri mənə pediatr Könül həkim dedi.

Məsələ ilə bağlı müraciət etmədiyim yer qalmadı. Amma şikayətimə baxılmadı. Artıq 10 aydır uşağın pensiyası kəsilib. Daima müalicələrdədir. Mərkəzi Klinikaya hər gedişimizdə 500 manatdan çox xərcimiz çıxır. İldə 6 dəfə müalicə götürür. Bu uşağı müalicə etdirməkdən ötrü biz çox əziyyət çəkirik. Xahiş edirəm ki, cənab nazir Anar Əliyev bu müraciəti cavabsız qoymasın".

Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi ilə əlaqə saxladıq. Agentlikdən bildirdilər ki, Ucar rayon sakini, 2020-ci il təvəllüdlü Xasməmmədli Mələk Pərviz qızının əlilliyi həm elektron sistem üzərindən, həm də 23.05.2025-ci il tarixdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim-eksperti tərəfindən əyani baxış zamanı qiymətləndirilib: "Müayinə zamanı vətəndaşın hazırkı sağlamlıq vəziyyətinin əlillik təyinatına əsas vermədiyi müəyyən edilib.

Bu səbəbdən də qanunvericiliyə uyğun olaraq Diaqnozun əlillik əlaməti təyin etməməsi barədə qərar verilib".

**Jalə FAMİLQIZI**

# Məcburi köçkünü evindən çıxarmaq istəyən vətəndaş təhdid olunur

## DTX əməkdaşı tərəfindən yazıldığı iddia olunan mesaj: "Sizə son xəbərdarlıqdır, əks təqdirdə olacaqlardan mən günahkar deyiləm"

**Son zamanlar ölkədə səs-küyə səbəb olan xəbərlərdən biri də keçmiş məcburi köçkünün ev sahibindən pul tələb etməsi olmuşdu. İlk dəfə "Hürriyyət"də işıq üzü görən bu məlumat cəmiyyədə ciddi rezonans doğurdu.**




Doğrudur, bu məsələyə fərqli yanaşmalar oldu. Yəni insanlar sanki 2 yerə bölündü. Belə ki, həmin məcburi köçkünü müdafiə edən də, onu qınayan da oldu. Hətta bizim saytı da qınayanlar oldu ki, reytinq xatirinə bu səs yazısını yaymışıq.

Əlbəttə, bu məlumatın və səs yazısının yayılmasına qarşı çıxanlar əsasən keçmiş məcburi köçkünlər oldu. Təəssüf ki, bizi qınayanların bəziləri də elə səsi yayılan xanım kimi, yerli sakinin evini mənimsəyənlər idi.

Halbuki, evi mənimsənilən Verdiyev Alik Vəkil oğlu başqa müraciət edəcək qurum qalmadığından, bu addımı atmışdı. Qadının səsini yazıb, bəlkə bu vasitə ilə onları evdən çıxara biləcəklərini hesab edirdi. Amma, necə deyərlər, "sən saydığını say, gör fələk (burda Mehriban - red.) nə sayır".

Maraqlıdır ki, səsi yayılan Hüseynova Mehriban Qüdrət qızı hələ də ev sakinini təhdid edir. Hansı ki, o, bundan əvvəl "Heç kəs məni bu evdən çıxara bilməz. Mən çıxsam belə, baldızım çıxmayacaq. Baldızım və qızı başınıza oyun açacaq. Görəcək günləriniz hələ qabaqdadır. Bizim arxamızda vəzifəli şəxslər durur", - demişdi. Sən demə, Mehriban Hüseynova bu sözləri heç də boşuna səsləndirmirmiş.

Belə ki, iki gün əvvəl, yəni 06.09.2025-ci il tarixində Verdiyev Alik Vəkil oğlunun anası Səlminaz Verdiyevanın telefonuna 077-523-37-** nömrəsindən mesaj daxil olur. Özünü "DTX əməkdaşı" kimi təqdim edən səsli mesajının stenoqramını olduğu kimi dərc edirik:

"Salam. Sizi narahat edən DTX əməkdaşıdır. Siz kimsiz ki, İbrahimova Səyyarəni evdən çıxarırsız? Bu, sizə son xəbərdalığımdır. Əks təqdirdə, mən günahkar deyiləm".

Qeyd edək ki, bu mesajda adı çəkilən Səyyarə İbrahimova Mehriban Hüseynovanın baldızıdır. Həmin baldız ki, o, telefonda Səlminaz xanıma "bura gəlsəniz, baldızım sizi şaqqalayar", - demişdi.

Maraqlıdır ki, geniş ictimai qınağa rəğmən, qarşı tərəf hələ də ev sahibini təhdid və təhqir etməyə davam edir. Əlbəttə, şübhə yoxdur ki, o mesajı yazan DTX əməkdaşı ola bilməz. Görünür, kimsə ev sahibini DTX-nın adı ilə çəkindirməyə, qorxutmağa çalışır. Yəqin, insanlar qanunlarımızda olan boşluğu görüb, vəzifəli şəxslərin adından istifadə hallarını çoxaldıblar.

Belə çıxır ki, icra məmuru da elə bu "DTX əməkdaşı"ndan çəkinir. Ona görə deyib ki, mən onlardan qorxuram.

Hörmətli səlahiyyətli qurumlar, hüquq-mühafizə orqanları, nəyi gözləyirsiniz? Belə getsə, biri öldürəcək, digəri öləcək, bu zaman müdaxilə edəcəksiz?

Adı, soyadı bizə bəlli olmayan, özünün mesajda yazdığı kimi - "DTX əməldaşı"nın əlaqə nömrəsinə artıq zəng çatmır. "Whatsapp" mesajlarını isə oxuyub, cavab vermir.

P.S. Hörmətli Ədliyyə naziri Fərid müəllim, icra məmurları işini icra etmədikdə biz jurnalistlər və zərəçəkənlər sizin qurumla əlaqə saxlaya bilmirlər. Başa düşürük, bu, sizing üçün maraqlı deyil. Amma bilin ki, insanlar əziyyət çəkir. Ədliyyə Nazirliyi məsələni həll edə bilmirsə, niyə bir sənəd vermir? Bu məsələdə icra məmuru Mirelnur Musəvinin və rəisinin marağı nədir? Axı o, nə üçün nə bizim, nə də şikayətçinin zənglərinə cavab vermir.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Aidiyyəti qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# Paytaxt sakini atasına əlillik dərəcəsinin düzgün təyin olunmadığını iddia edir

## Kamil Dadaşov: "Sözdə "ağırdır" desələr də, sənəddə elə yazırlar ki, ancaq 3-cü qrup əlillik təyin olunur."

**Bakı şəhəri, Sabunçu rayonu, Zabrat qəsəbəsinin sakini Dadaşov Kamil Qabil oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, atası Dadaşov Qabil Kabir oğlu ağır vəziyyətdə olsa da, ona 1-ci və ya 2-ci qrup əlillik verilmir:**

"Mən, Dadaşov Kamil Qabil oğlu, yazaraq xahiş edirəm ki, müraciətimizi işıqlandırasınız.

Bildirim ki, atam Dadaşov Qabil Kabir oğlu çox ağır vəziyyətdədir. 1982-ci ildə Maştağada - 3 saylı xəstəxanada yatıb. İllərdir ağır psixotrop iynə-dərman qəbul edir.

2000-ci ildə 1-ci qrup əlillik təyin olunmuşdu.

Anam da ağır xəstədir. Hər iki valideynimin baxıma ehtiyacı var.

Atamın vəziyyəti isə olduqca ağırdır. Özünü bilmir, hüşü gedir. Bir tikə yemək yedizdirən kimi qaytarır. Hər işini özümüz görürük. Daima baxıma ehtiyacı olan xəstədir.

İyul ayında əlillik alması üçün şəhər poliklinikasında yoxlanışdan keçirdik. Belə xəstəni yoxlanışa aparmağın özü də zülmdür. Daha sonra Psixonevroloji şöbəsində yoxlanışdan keçdi. Orada da həkim qeyd etdi ki, xəstənin vəziyyəti olduqca ağırdır. Reabilitasiya mərkəzinə göndərildi. Lakin yenidən 3-cü qrup təyin etdilər. Müayinə edən bütün həkimlər deyirlər ki, bu adama 1-ci qrup əlillik verilməlidir. Amma həkimlər qərəzli şəkildə dedikləri diaqnozu sənədə yazmırlar. Sözdə "ağırdır" desələr də, sənəddə elə yazırlar ki, ancaq 3-cü qrup əlillik təyin olunur.



Belə bir xəstəni heç kəs işə götürə bilməz. Nə yeməyini bilir, nə içməyini. Ayaq yoluna belə, özü tək gedə bilmir. Aparat sənədlərində beyninin yarısı qaralıb. Bizə qarşı haqsızlıq edilir".





Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyindən bildirdilər ki, Bakı şəhər sakini 1968-ci il təvəllüdlü Dadaşov Qabil Kabir oğlu 12.03.2025-ci il tarixdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində əyani müayinə edilib: "Vətəndaşın müayinə nəticələrinə əsasən, qanunvericiliyə uyğun olaraq onun hazırkı sağlamlıq vəziyyətinin üçüncü dərəcə müddətsiz əlillik təyinatına əsas verməsi barədə qərar qəbul edilib.

Qabil Dadaşov hazırda buna uyğun olaraq müvafiq sosial ödənişlərlə təmin olunur".

**Jalə FAMİLQIZI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İctimai və dövlət maraqlarına kənar müdaxilələr

*"Dövlətlər də insanlar kimidir, çünki onlar da insan xarakterindən yaranırlar"*

**Platon**



# Fərdi maraqlar dövlət maraqlarının önünə keçərsə...

## Və yaxud ictimai maraqların müdafiəsində vətəndaş faktoru



**Yazımıza qədim yunan filosofu Platonun məşhur kəlamı ilə başlamağımız heç də təsadüf deyil. Çünki dövlətlər onun sərhədləri daxilində yaşayan, Platonun təbirincə desək, ona "bənzəyən" insanların (xalqların) birliyindın yarandığından, hər bir dövlətin marağı da, təbii olaraq, onun vətəndaşlarının arzu və istəkləri ilə uzlaşır. Əlbəttə, bütün tarixi dönəmlərdə istisnalar olub və insan cəmiyyəti mövcud olduqca hər zaman və hər bir toplumda bu cür istisnaların olacağı da şübhəsizdir. Amma əminliklə deyə bilərik ki, hər bir dövlətin və cəmiyyətin inkişafı vətəndaş faktoruna bağlıdır. Hətta belə də ifadə edə bilərik ki, dövlət vətəndaşların birliyindən təşkil olunmuş dayaqlar üzərində dayanan "mexanizmdir". Bu dayaqlar nə qədər möhkəm olarsa, şübhəsiz, dövlətin ömrü və gücü də bir o qədər artıq olar.**

Bəllidir ki, hər bir vətəndaşın təmsil etdiyi dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qoruması onun borcudur. Eynilə, dövlətin başlıca məqsədi də onun sərhədləri daxilində yaşayan xalqların idarə olunmasını və vətəndaşların hüquqlarının müdafiəsini təmin etmək, eləcə də onları layiqli yaşatmaqdır. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin "Dövlətin ali məqsədi" bölümündə də aşkar şəkildə göstərilmişdir ki, "insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir".

### İctimai maraq nədir?

Əlbəttə, bu yazıda məqsədimiz heç də dövlət haqqında nəzəri fikirləri sadalamaqdan ibarət deyil. Lakin bir halda ki, ictimai və dövlət maraqlarının müdafiəsindən yazırıq, ilk öncə bu maraqların nədən ibarət olduğunu aydınlaşdırmalıyıq. Şübhəsiz, hər bir dövlət marağında ictimai marağın elementləri ehtiva olunur. Odur ki, dövlət marağı, ictimai və milli maraq anlayışlarını bir arada təhlil etmək daha məqsədəuyğun olar.

Politologiyadan da bəllidir ki, dövlət cəmiyyəti idarə edir, quruyur və onun siyasi və ictimai quruluşunu təmin edir. İctimai marağı tənzimləyən də məhz dövlətdir. Təbii ki, vətəndaş cəmiyyətləri - ictimai birliklər və QHT-lər də ictimai marağın müdafiəsində aktiv rol alırlar. Bu marağın arxasında isə vətəndaş hüququnun qorunması dayanır. Deməli, ictimai marağın ən əsas elementi vətəndaş hüquqlarının qorunmasıdır.

Yeri gəlmişkən qeyd edək ki, ictimai və dövlət maraqları ilkin formada hələ qədim dövrlərdən mövcud olub. Lakin qədim dövlətlərdə insanların hüquqları nəzərə alınmayıb. Ölkənin maddi-mənəvi sərvətləri onun rəhbərliyində olan bir qrupun maraqlarına xidmət edib. Bu səbəbdən də qədimdə dövlət və ictimai maraq anlayışları bir-birinə əks qütbdə dayanıb. Bu maraqların uzlaşması XIV-XV əsrlərdən başlayıb. Belə ki, kapitalizm münasibətləri yarandıqdan sonra dövlət fərdi azadlıqların və insan hüquqlarının təminatçısı rolunda dövlət çıxış etməyə başlayıb. Yəni cəmiyyəti təşkil edən insan, vətəndaş, fərd dövlətin və dövlət marağının mərkəzi nöqtəsinə çevrilib.

Qeyd etməliyik ki, xüsusilə demokratik dövlətlərdə vətəndaş cəmiyyətinin maraqları dövlət maraqları ilə sıx bağlı olur. Azərbaycan da öz müstəqilliyini bərpa etdikdən sonra demokratiya sahəsində çox böyük yol qət etdiyindən, burada dövlət maraqlarının ictimai maraqlarla uzlaşdığını deyə bilərik.

Etiraf etməliyik ki, dövlətimiz demokratiya sahəsində qarşıya qoyduğu hədəflərə hələ tam olaraq çatmayıb. Amma onu da əminliklə deyə bilərik ki, Azərbaycanın bütün dünya üçün örnək hesab olunan demokratik dövlətlərinin inkişaf səviyyəsinə çatacağı gün heç də uzaqda deyil. Necə ki, mərhum dövlət başçısı Heydər Əliyev vaxtilə "Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir", - deyə vaxtilə bəyan etmişdi, artıq bir sıra sahələrdə Qərb ölkələrindən daha öndə olduğumuzu da xüsusilə qeyd edə bilərik.

### Dövlət maraqları nələrdir?

Şübhəsiz, hər bir dövlətin başlıca maraqlarından biri, bəlkə də birincisi ərazi bütövlüyünün toxunulmazlığıdır. Hansı ki, dövlətin birinci ünsürü olan ərazi onun fiziki, maddi-təbii əsası və məkan mahiyyətidir. Bunun ardınca dövlətin ərazisi daxilində yaşayan və onun hakimiyyətinə tabe olan əhalinin maraqları gəlir. Bu, politologiyada dövlətin ikinci ünsürü adlanır. Çünki xalqsız, milli əsasdan məhrum dövlət ola bilməz. Daha sonra müəyyən ərazidə müvafiq orqanlar tərəfindən həyata keçirilən dövlət hakimiyyətinin qorunması marağıdır. Bu isə dövlətin üçüncü ünsürü adlanır.

Ümumiyyətlə, hər bir dövlətdə onu formalaşdıran xalqın milli maraqlarının müəyyənləşdirilməsi və təmin olunması əsas vəzifələrdən biridir. Bu isə o deməkdir ki, dövlətin marağı ilə xalqın (vətəndaşın) marağı bütün hallarda üst-üstə düşməlidir. Çünki dövlətin bazasında xalq dayanır. Bu maraqlar yalnız o halda fərqli olur ki, dövlət rəhbərliyində təmsil olunan qüvvələr xalqın iradəsi ilə seçilmir, hakimiyyəti ya güc yolu, ya da saxtakarlıqla zəbt edirlər. Bu isə dövlətin suverenliyi və ərazi bütövlüyü üçün böyük təhlükə vəd edir. Bunun bariz nümunəsi kimi hazırda Suriyanın öz ərazisinin bir hissəsinə nəzarəti itirməsini və ölkənin illərdir müharibə şəraitində yaşamasını göstərə bilərik. Əlbəttə, burada kənar siyasi faktorlar da nəzərdən qaçmamalıdır. Amma güman edirik ki, xalq öz dövlətinə, onun idarəçiliyində təmsil olun hakim qüvvələrə dəstək verəcəyi halda heç bir kənar müdaxilə əhəmiyyətli olmur. Təbii ki, müharibələr istisna olmaqla.

Sevindirici haldır ki, bu gün Azərbaycan dövlətinin maraqları vətəndaş maraqları ilə tamamilə uzlaşır. Ölkədə mövcud olan demokratik mühit insanların bütün sahələrdə sərbəst fəaliyyət göstərməsi, öz potensialı daxilində arzu və istəklərini həyata keçirməsi üçün zəmin yaradıb. Doğrudur, bu sərbəstlik müəyyən qrup vətəndaşlarımızın yanlış mövqe sərgiləməsinə, hətta bəzi hallarda onların ictimai və dövlət maraqlarına qarşı çıxmasına da gətirib çıxarır. Hansı ki, bu da həmin insanların şəxsi maraqlarını hər zaman dövlət maraqlarından üstün tutmaları ilə bağlıdır.

Odur ki, heç bir halda fərdi maraqlar ictimai və dövlət maraqlarının önünə keçməməlidir. Bu, kütləvi xarakter alarsa, heç bir cəmiyyətin və dövlətin inkişafından söhbət gedə bilməz.

*(Ardı var)*

(Ardı var)

**"Hürriyyət"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur




# Milyonlarla mənimsəmə, Bakıda, Türkiyədə bahalı əmlak, şirkətlər...

## 14 il cəza alan baş direktorun cinayət dosyesi...

**“SOCAR-AQŞ” MMC-nin keçmiş baş direktoru, 54 milyon manatlıq yeyintidə suçlanan Ramin İsayevə 14 il həbs cəzası kəsilib.**

Bu iş üzrə bir ildən çoxdur Bakı Ağır Cinayətlər Məhkəməsində gedən araşdırmalar sentyabrın 8-də yekunlaşıb. Hökmə əsasən, R.İsayev Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə), 193-1.3.2-ci (cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı) maddələriylə təqsirli bilinib.

R.İsayevin yaxınlarının adına olan xeyli daşınmaz əmlak və həbs olunarkən ondan götürülmüş milyonlarla dollar nağd pul da müsadirə edilib. Müsadirə olunmuş əmlak R.İsayevə qarşı qaldırılmış mülki iddiaların ödənilməsinə yönləndiriləcək. Cinayət işində həbs qoyulan daşınmaz əmlaklar arasında ”Sea Breeze”də ev, Bakının mərkəzində mənzil və s. var.

Bu cinayət işi üzrə üç qurum - ”SOCAR-AQŞ”, ”Abşeron Qazma” MMC və ”Aqrarkredit” QSC zərərçəkmiş qismində tanınıb. R.İsayev çoxsaylı qohum və tanışlarını formal işə götürüb büdcə hesabına onlara yüksək maaşlar verməkdə, başqalarının adına şirkətlər yaradıb onları tenderlərdə qalib elan edərək, bunun hesabına milyonlarla dövlət vəsaitini mənimsəməkdə təqsirləndirilir. Cinayət işində onun həyat yoldaşı, qardaşı, bacısının övladları və başqa qohum və tanışlarının adları keçir.

İttihamda yer alan məsələlərdən biri də R.İsayevin Türkiyə vətəndaşlığı alıb mənimsənildiyi iddia olunan milyonları orada daşınmaz əmlakların alınmasına yönəltməsi, bir bölümünün də banka yatırılmasıdır. Bununla bağlı R.İsayevə cinayət yolu ilə əldə olunan əmlakın leqallaşdırılması ittihamı verilib.

O, vəzifədən çıxarılandan sonra şirkətin hesablarına kiberhücumların təşkilində, Beynəlxalq Bankdan kredit kimi götürülmüş milyonlarla vəsaitin yeyintisində də suçlanır. R.İsayev özünü təqsirli bilmir, ona qarşı irəli sürülən ittihamlarla razılaşmır. O bildirib ki, dövlət məmuru olmazdan öncə bizneslə məşğul olduğundan yetərincə gəlirləri olub və özünə və ailə üzvlərinə bunun hesabına əmlaklar alıb.

Qazma işləri gerçəkləşdirən ”SOCAR -AQŞ” MMC-ni 2007-ci ildə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə yanaşı, həm də ”Nobel Energy” və ”Abşeron Qazma” MMC (AQŞ) təsis edib. R.İsayev 2009-2020-ci illərdə ”SOCAR-AQŞ” MMC-nin baş direktoru vəzifəsində çalışıb. O, vəzifəsindən çıxarılandan sonra Türkiyəyə köçüb və bir müddət sonra da Türkiyədə Ramin Hakan adıyla bu ölkənin vətəndaşı olub. R.İsayev Harvard Universitetinin məzunudur. O, ”SOCAR-AQŞ” MMC-yə aid vəsaitlərdən özbaşına universitetin hesabına ianə etməkdə də suçlanır.

Fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetinin (ABU) sabiq rektoru Elşad Abdullayev Universitetin Moskva filialını satmağa cəhd edib. Yenicag.az-ın əldə etdiyi məlumata görə, hazırda Fransada yaşayan Elşad Abdullayev yaxın vaxtlarda ABU-nun Moskva filialını satmaq üçün uyğun müştəri də tapıb. Lakin bundan xəbər tutan azərbaycanlı iş adamları məsələ ilə bağlı rəsmi Bakı və Moskvaya müraciət etdikdən sonra onun bu niyyəti baş tutmayıb.



# Elşad Abdullayevdən ilginc fırıldaq

## ABU-nun satışa çıxarılan Moskva filialı necə yaradılıb?


Франция начала расследование против азербайджанского политэмигранта Эльшада Абдуллаева | Инфотека 24

19 февраля 2020

RÉPUBLIQUE FRANÇAISE

ABDULLAYEV

Elshad

25 09 1964

PRÉFECTURE DE L'ESSONNE

10 03 2018

AZERBAIDJAN

P<FRAABDULLAYEV<<ELSHAD<ISLAM<OGLU<<<<<<<<<<



Fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetinin (ABU) sabiq rektoru Elşad Abdullayev Universitetin Moskva filialını satmağa cəhd edib

Qeyd olunur ki, fəaliyyəti dayandırılmış ABU-nun Moskva filialının yerləşdiyi ərazinin ümumi sahəsi bir hektardan çoxdur, tədris korpusunun sahəsi isə 15 sotdur. Bundan əlavə, ABU-nun Moskva filialının yaxınlığında yataqxana da mövcuddur. Sözügedən filial 2007-ci ildən başlayaraq yaradılıb və filialın yerləşdiyi ərazi Elşad Abdullayevin adına rəsmiləşdirilib. Daxil olan məlumata əsasən, ABU-nun Moskva filialının inşası təqribən 10 milyon dollara başa gəlib.

Rusiyada təhsil ocağı tikmək üçün deklarasiya tələb edildiyini nəzərə alsaq, binanın Elşad Abdullayevin şəxsi vəsaiti hesabına tikilməsi istisnadır. O baxımdan, Elşad Abdullayev müvafiq deklarasiyanı doldurarkən 3 il ərzində xərclənən pulu Təhsil Nazirliyinin vəsaiti kimi təqdim edib. Məsələdən belə aydın olur ki, Elşad Abdullayev həmin dönəmdə Təhsil Nazirliyində yüksək mövqe tutan hansısa vəzifəli şəxslərlə əlbir görüb.

ABU-nun Moskva filialı ilə bağlı qaranlıq məqamları araşdıran iş adamı Fuad Rzayev bildirib ki, bu barədə Təhsil Nazirliyinə müraciət edəndə, oradan “keçmiş nazirin zamanında baş verib, bu məsələyə biz qarışa bilmərik” cavabını alıb. Fuad Rzayevin sözlərinə görə, ABU-nun Moskva filialının satışa çıxarılacağını eşidəndə, Rusiyanın rəsmi orqanlarına məktub ünvanlayıblar. Cavabında isə xəbərdarlıq edilib ki, Azərbaycan dövləti ya gəlib filiala sahib çıxsın, ya da bina sökülüəcək.

Fransada yaşayan və haqqında “Interpol”un “qırmızı bülleten”ində axşatırışda olduğu deyilən Elşad Abdullayev özü bir neçə dəfə sosial şəbəkədə bildirib ki, Franada, “Interpol”un ofisinin yaxınlığında yaşayır və həmin qurumun nümayəndələri ilə görüşür də. Əldə olunan məlumata görə, xaricdən Azərbaycan hökumətinin əleyhinə söyüş kampaniyasını körükləyən məhz Elşad Abdullayev olub. O, xaricdə yaşayan azərbaycanlı bloqerləri də bu kampaniyaya cəlb edərək, pul qarşılığında istədiyi şəxsləri söydürüb.

Lakin bir müddətdən sonra ya istəyinin baş tutması, yaxud da kampaniyanın nəticəsizliyi səbəbindən bloqerlərin pulunu kəsib. Nəticədə həmin bloqerlər artıq Elşad Abdullayevin özünü hədəf götürüblər.

Xatırlatmaq yerinə düşər ki, 2007-ci ildə Elşad Abdullayev barəsində Azərbaycan Respublikası Cinyət Məcəlləsinin 137.3-cü maddəsi cinayət işi açılıb. Buna baxmayaraq, o, müəmmalı şəkildə ölkəni tərk edə bilib. 14 ildir barəsində cinayət işi açılan şəxsin hələ də ölkəyə gətirilməməsi isə ciddi sual doğurur. İş adamı Fuad Rzayev bildirib ki, Elşad Abdullayev mütləq Azərbaycana gətirilməlidir: “Elşad Abdullayevin əməlləri göz önündədir. Hər kəs onun nələr etdiyini yaxşı bilir. Bu qədər cinayət törətmiş şəxs barəsində ciddi addım atılmayanda, o, bundan daha ürəklənərək, xaricdən Azərbaycan əleyhinə istədiyi kimi çıxışlar edir, müxtəlif bəyanatlar verir. Elşad Abdullayev dövlətin də, ABU-da təhsil alan tələbələrin də pulunu mənimsəyib. Özünə və övladlarına varidat yığıb”.

Qeyd edək ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2014-cü il iyunun 25-də Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.1 (rüşvət alma), 311.3.2, 311.3.3 və 29,312.2 (rüşvət vermə) maddələri ilə təqsirləndirilən şəxs qismində Elşad Abdullayevin istintaqa cəlb edilməsi barədə qərar qəbul edilib. Barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilərək axtarış elan olunmaqla yaxalanması istiqamətində beynəlxalq axtarış tədbirləri həyata keçirilən Elşad Abdullayevin yaşadığı yer bəlli olsa da, bu yöndə heç bir təsirli addım atılmır. Görəsən, niyə?

**“Hürriyyət”**

# 40 ildir birinci qrup əlillik pensiyası alırdı, kəsdilər




## Bərdə sakini Fəridə İsmayılovan rəsmi qurumlara müraciət

Bərdə şəhəri, Gəncə küçəsi, ev 24-də yaşayan İsmayılova Fəridə Ələsgər qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən narazıdır: mənim əlilliyimi 2-ci qrupla dəyişdirdilər.

Qardaşım mənim etibarnaməm əsasında Bərdədə fəaliyyət göstərən DOST Mərkəzinə yaxınlaşdı və problemi qeyd etdi. Lakin DOST Mərkəzindən bildirdilər ki,

> Qardaşım mənim etibarnaməm əsasında Bərdədə fəaliyyət göstərən DOST Mərkəzinə yaxınlaşdı və problemi qeyd etdi. Lakin DOST Mərkəzindən bildirdilər ki, sizin əlilliyiniz sistemdə 2-ci qrup qeyd olunub, heç bir köməklik göstərə bilmərik. Qardaşım Etiraz edərək bildirib ki, bu, necə ola bilər axı, biz hər ay dövlətimiz tərəfindən bacıma verilən prezident təqaüdü də daxil olmaqla, 1-ci qrup əlil kimi hər ay 470 manat pul alır. Digər bacım İsmayılova Kəmalə Ələsgər qızı da dövlət tərəfindən ona baxması üçün 100 manat alır.

"Mən, İsmayılova Fəridə Ələsgər qızı, 02.10.1967-ci ildən Bərdə şəhəri, Gəncə küçəsi, ev 24-də yaşayıram. 1983-cü ilə kimi sümük iflici xəstəliyi səbəbindən hər iki ayağımdan 8 dəfə əməliyyat keçirmişəm. Səhhətimdəki ağır vəziyyətlə bağlı orta məktəbə belə, gedə bilməmişəm.

1983-cü ildə həkimlərin mənə qoyduğu ağır diaqnozlar səbəbindən ömürlük 1-ci qrup əlillik təyin edilib. Dəfələrlə Bakı şəhərində yerləşən "Azərbaycan Elmi Tədqiqat Travmatologiya və Ortapediya İnstitu" publik hüquqi şəxs adlı yerdə müayinə və müalicələr almışam, hər dəfə həkimlər mənim xəstəliyimin sağalmaz olduğunu bildiriblər.

2017-ci ildə yenidən müayinə olundum, ancaq yenə səhhətimdə heç bir irəlləyiş olmadığı bildirildi. Yenidən 1-ci qrup əlilliyim öz təsdiqini tapdı.

Onu da deyim ki, ayaqlarımda güclü ağrılar səbəbindən ildə bir dəfə cənab Prezident tərəfindən bizə yardımlar ayrılırdı. Sonradan heç bir yoxlanışa dəvət etmədən, sizin əlilliyiniz sistemdə 2-ci qrup qeyd olunub, heç bir köməklik göstərə bilmərik. Qardaşım Etiraz edərək bildirib ki, bu, necə ola bilər axı, biz hər ay dövlətimiz tərəfindən bacıma verilən prezident təqaüdü də daxil olmaqla, 1-ci qrup əlil kimi hər ay 470 manat pul alır. Digər bacım İsmayılova Kəmalə Ələsgər qızı da dövlət tərəfindən ona baxması üçün 100 manat alır.

DOST Mərkəzindən bildiriblər ki, bu, bizlik deyil, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edin. Bundan sonra biz aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etdik. Bir neçə müddətdən sonra bizə məktub göndərdilər ki, bu dəfə 3-cü qrup təyin edilib.

Biz yenidən etiraz edərək, nazirliyə müraciət etdik. Bizi Mingəçevir Şəhərində yerləşən Qarabağ Regional Tibbi Sosial Ekspert Komissiyasına yönləndirdilər. Burada da 9 nəfər komissiya üzvünün əyani müayinəsi keçirildi. Yeni sənədlərdə qeyd etdilər ki, İsmayılova Fəridə Ələsgər qızının ayaqlarındakı problem həqiqətən ciddidir və bu adama baxan lazımdır. Bizə bildirdilər ki, bütün sənədləri Bakıya - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərəcəyik.

Bir beçə ay keçdi, heç bir şey dəyişmədi, 3-cü qrup olaraq qaldı. Biz məcbur qalıb cənab Prezidentə, Mehriban xanıma, Baş nazirə, Milli Məclisin sədrinə və Ombudsmana onlarla şikayət məktubları göndərdik. Lakin bizimlə heç kim maraqlanmadı. Sadəcə, məktublar gəldi ki, baxılması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilib. Hələ neçə aylardır bu nazirlikdən xəbər yoxdur.

Prezident Adminstrasiyasının 1111 qaynar xəttinə də məlumat vermişik. Bildirdilər ki, sizin cənab Prezidentə ünvanladığınız teleqram nazirliyə yönləndirilib. Biz yenə etiraz etdik ki, axı, bu nazirlik maraqlanmır, niyə yönləndirirsiniz?! Bildirdilər ki, bizim səlahiyyətimiz yoxdur, nazirliyə yenidən müraciət edin.

Artıq bir neçə aydır ayaqlarımda güclü ağrılar başlayıb. Bakıda həkimlə danışdıq, təcili müalicə olunmalıyam. İmkanımız da yoxdur. Ayrı heç bir yerdən gəlirimiz yoxdur. Gözümüzü tikdiyimiz 1-ci qrup əlillik pulu idi, onu da kəsib 3-cu qrup etdilər. Qalmışıq çıxılmaz vəziyyətdə. Heç kim bizim şikayətimizə baxmır.

Sizdən artıq dərəcədə xahiş edirik ki, bizim səsimizi cənab Prezidentə və aidiyyəti dövlət qurumlarına çatdırasınız. Bilmək istəyirik ki, 40 ildən çox 1-ci qrup əlillik pensiyası aldığım halda, nəyə əsasən heç bir səbəb və müayinə etmədən kəsiblər?!"

Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi ilə əlaqə saxladıq. Agentlikdən bildirdilər ki, Bərdə şəhər sakini, 1967-ci il təvəllüdlü İsmayılova Fəridə Ələsgər qızı 04.12.2024-cü il tarixdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində əyani müayinə edilib:

"Vətəndaşın müayinə nəticələrinə əsasən, qanunvericiliyə uyğun olaraq onun hazırki sağlamlıq vəziyyətinin üçüncü dərəcə müddətsiz əlillik təyinatına əsas verməsi barədə qərar qəbul edilib.

Növbəti dəfə, 21.06.2025-ci il tarixdə Fəridə İsmayılovanın əlilliyinin qiymətləndirilməsi ilə bağlı tibb müəssisəsi tərəfindən yeni forma-88 sənədi rəsmiləşdirilib. Qiymətləndirilmə nəticəsində vətəndaşın əlilliyi ilə bağlı əvvəlki qərar qüvvədə saxlanılıb".

**Jalə FAMİLQIZI**



# Vətən fədailərinin işıqlı yolçusu...

## Manya Səxavətqızının doğum günüdür



**1 sentyabr AYB-nin və AJB-nin üzvü, "VƏTƏN MÜCAHİDLƏRİ", "VƏTƏN FƏDAİLƏRİ" layihəsinin rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm", "Simurq-2021", "Dünya Qadın" və 2023-cü ildə "Altın Palmiye - Yılın Şairi", 2024-cü ildə "Diamonds of Azerbaijan" və "Caspian Awards Azerbaijan 2025" mükafatlarına layiq görülmüş, 11 kitab müəllifi yazıçı-publisist Manya Səxavətqızının doğum günüdür.**

**Dəyərli Manya Səxavətqızı!**

Bu gözəl gündə, 1 sentyabrda, doğum gününüz münasibətilə qəhrəman şəhidlərimizin ailə üzvləri və yaxınları adından Sizə ən səmimi təbriklərimizi çatdırırıq. Sizin böyük zəhmət sərf edib ərsəyə gətirdiyiniz kitablar Azərbaycan xalqının tarixində və mədəniyyətində çox dəyərli bir yer tutur. Vətənə olan sevginiz, şəhidlərə və müharibə iştirakçılarına olan hörmətiniz, yazdığınız şeirlər və kitablar vasitəsilə gənc nəslə örnək olur.

Siz həm ədəbiyyatçı, həm də vətənpərvər bir insan kimi böyük bir məsuliyyət daşıyırsınız. "Vətən Mücahidləri" və "Vətən Fədailəri" kimi layihələriniz, təkcə sözün gücünü istifadə etməklə yox, həm də tarixə və milli yaddaşa xidmət etməklə çox böyük bir iş görmüşdür. Yazdığınız hər bir kitab, hər bir şeir şəhidlərimizin qəhrəmanlığını, igidliyini, cəsarətini gələcək nəsillərə təbliğ edir, onların vətənpərvər kimi tərbiyələnməsində böyük əhəmiyyət kəsb edir.




"Vətən uğrunda canını fəda edənlər, həmişə qəlbimizdə yaşayar" düşüncəsi Sizin yaradıcılığınızın əsasını, özəyini təşkil edir. Siz sadəcə yazmaqla kifayətlənmədiniz, həm də şəhidlərə, onların doğmalarına olan bu böyük ehtiramı hər bir əsərinizdə yaşatdınız. Vətənə olan dərin sevgini, xalqın qəhrəmanlıq tarixini və mübarizəsini nəinki yazılarınızda, həm də hər bir addımınızda görmək mümkündür.

Sizin müəllifi olduğunuz 11 kitabın hər biri minlərlə şəhidimizin qəhrəmanlıq dastanı, zəfər, uğur hekayəsidir. Hər bir əsəriniz oxucularınıza Vətənin dəyərini, mübarizənin əhəmiyyətini və şəhidlərin şücaətini, qəhrəmanlığını xatırladır. Universitetlərdə, məktəblərdə keçirdiyiniz görüşlərdə tələbələrə, şagirdlərə vətəni sevməyi, torpaq uğrunda canından keçən qəhrəmanları unutmamağın vacibliyini aşılayırsınız.

Bu gözəl gündə, Sizi təbrik edir, yeni yaşınızın Sizin üçün uğur, xoşbəxtlik və sağlamlıqla dolu olmasını diləyirik. Sizin yaradıcılığınız və fədakarlığınız xalqımız üçün böyük bir nemətdir və uzun illər boyu Sizin gözəl işləriniz gənclərimizə örnək olacaq.

**Doğum gününüz mübarək, Manya xanım!**

**Hər yeni yaşınız yeni uğurların və müvəffəqiyyətlərin başlanğıcı olsun. Vətənə olan sevginiz və ədəbiyyata olan bağlılığınız daim qəlbinizdə parlaq bir ulduz kimi parlasın! Sizə sağlamlıq, uzun ömür və xoşbəxtlik arzulayırıq.**

Azərbaycanın tanınmış və nüfuzlu ziyalılarından biri, uzun müddət yüksək dövlət vəzifələrində çalışmış, 4 çağırış Azərbaycan Milli Məclisin üzvü olmuş Vahid Əhmədov azpolitika.info saytına müsahibəsində gündəmin əsas mövzuları - Rusiya - Azərbaycan münasibətlərində baş verən gərginlik, regionda cərəyan edən hadisələr, eləcə də ölkə gündəmi, iqtisadi, sosial problemlər, gözlənilən islahatlar barədə sualları cavablandırıb. Müsahibəni oxucularımıza təqdim edirik:



# “Ölkədə referendum keçirilməlidir”

## Vahid Əhmədov: “Azərbaycanda Türkiyə modelinə uyğun bir sistem yaratmaq olar”

*(Əvvəli ötən sayımızda)*

***- Vahid müəllim, Rusiyanın təzyiqlərinin bir istiqaməti də orada çalışan miqrantlara qarşıdır, bu da şübəsiz Azərbaycan üçün həssas məsələdir. Məlumdur ki, Rusiyada yüz minlərlə soydaşımız çalışır və ailələrinə vəsait göndərirlər, həm də kənd təsərrüfatı istehsalçıları məhsullarını bu ölkədəki bazarlara yönəldirlər. Bu təzyiqlər hansı müddətə qədər davam edə bilər?***

- Bu proses Prezident İlham Əliyev və Vladimir Putin arasında görüş olanadək davam edəcək. Düzdür, bu yaxınlarda digər dövlət rəsmiləri arasında görüş oldu. Rusiya Baş nazirinin müavini Overçukla Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev Həştərxanda İqtisadi Şuranın toplantısı çərçivəsində bir araya gəldilər. Rusiya tərəfi həm də enerji sahəsində əməkdaşlıq etməyə hazır olduğunu bildirdi.

***- Overçuk bu məsələni hətta prioritet kimi qeyd etdi...***

- Bəli. Rusiya ilə aramızda gərginlik yaranmamalıdır. Heç kim bunun tərəfdarı deyil. Çünki orada bizim soydaşlarımız var. Onların vəziyyətini başa düşürük və onlara kömək etmək lazımdır. Yekaterinburqda baş verən hadisələr olmamalı idi, təyyarə qəzası ilə bağlı da Rusiya dövlət başçısı və Baş nazir deməli idilər ki, “səhv bizdə olub”, təzminat ödənilməli və bundan sonra heç bir problem yaranmamalı idi. Dövlət başçımız da bunu tələb edir. Rusiya dövlət olaraq öz səhvini boynuna almalı idi.

Bu yaxınlarda diqqət etdinizsə, Sergey Lavrov Alyaskadakı görüşdə SSRİ köynəyi geyinmişdi. Onlar köhnə iddialarından, şovinist düşüncələrindən əl çəkmək istəmirlər. Mən dövlət rəhbərləri və rus xalqının nümayəndələri ilə uzun illər işləmişəm, münasibət qurmuşam. Həmişə onlarla münasibətlərim yaxşı olub və indi də yaxşıdır.

Bu gün ruslar Azərbaycana turist kimi rahat şəkildə gəlib-gedirlər, heç bir problem də yoxdur. Dövlətlərarası münasibətlər uzun müddət belə davam etməyəcək. Yəqin ki, Ukrayna-Rusiya münasibətləri müəyyən qədər sakitləşəndən sonra stabilləşmə olacaq. Mən Rusiyada ötən əsrin 90-cı illərində olmuşam. Sonuncu dəfə isə 2024-cü ildə Qod Nisanovun atası rəhmətə getmişdi, atalarımızın münasibəti çox yaxın olub, mən də o yas mərasiminə qatılmışdım. İki gün Moskvada qaldım, ciddi dəyişiklik gördüm. Əvvəlki Moskvadan əsər-əlamət yox idi...

Bugünkü münaqişə həm Rusiyanın, həm də Azərbaycanın xeyrinə deyil. Rusiya başa düşür ki, Azərbaycan 90-cı illərin ölkəsi deyil. Azərbaycan güclü ordusu ilə seçilir, İsrail ilə yüksək səviyyədə münasibətləri var və texnoloji sahələrdə birgə əməkdaşlıq aparılır. Türkiyə və Pakistanla əlaqələr də çox yüksəkdir. Bütün bunlar Azərbaycan dövlət başçısının səyi nəticəsində mümkün olub və bunu unutmaq olmaz.

***- Ölkə daxilindəki mövcud sosial-iqtisadi vəziyyətlə bağlı da suallarımız var. Vəziyyət necədir, nələri müşahidə edirsiz?***

- Çox şükür ki, Azərbaycanda sabitlik var. 44 günlük müharibə zamanı ölkənin daxilində heç bir ciddi mənfi proses baş vermədi. Dövlət Təhlükəsizliyi Xidməti (DTX) çox ciddi iş apardı. İstər Daxili İşlər Nazirliyi, istər digər qurumlar olsun, hər hansı təxribata imkan vermədilər. Azərbaycanda 30 minə yaxın erməni var, hər şey ola bilərdi... Lakin biz başa düşməliyik ki, bütün bu görülən işlərin mərkəzində Azərbaycan vətəndaşının maddi vəziyyəti dayanır ki, bu da hələ problem olaraq qalır. Düzdür, müəyyən qədər maaşlar və pensiyalar artırılır, amma bu kifayət deyil.

Ən prioritet məsələ insana iş imkanlarının yaradılmasıdır ki, o səhər evdən çıxanda axşam uşağına çörək gətirə bilsin. Son vaxtlar kəndlərdə boşalma prosesi gedir.

***- Bir çox dağ kəndlərində demək olar, yaşayış yoxdur...***

- Bəli, rayonları gəzərkən görürəm ki, insanların iş yeri olmadığı üçün şəhərlərə köçməyə məcbur olurlar. Bu sahədə ciddi proqram hazırlanmalıdır. Azərbaycan hökuməti - Nazirlər Kabineti bu sahədə konkret proqramlar yaratmalıdır. Mən bu məsələni bir neçə dəfə Milli Məclisdə də qaldırmışdım və iş yerlərinin açılmasının vacibliyini vurğulamışdım. Dünyada da belədir ki, sənayesi inkişaf etmiş ölkələrdə mədəniyyət də yüksək səviyyədə olur. Sənayeyə diqqət yetirmək lazımdır. Mən zavod direktoru işləyərkən böyük birliyin üç zavoduna rəhbərlik edirdim və orada təxminən 7-8 min adam çalışırdı. Bizdən bölgələrdə zavod filialları açmaq tələb olunurdu. Laçında avtomobil istehsal edəcək bir zavod tikməyə başlamışdım, o, bir neçə il fəaliyyət göstərdi. Qubada da bir filial açmışdım. İndi də sənaye sahəsinə diqqət yetirmək lazımdır. Sumqayıtda müəyyən sənaye zonaları yaradılıb. 2000-ci illərin əvvəllərində İqtisadiyyat naziri ilə görüşdə də dedim ki, Azərbaycanda avtomobil zavodu açaq, pulumuz var. Amma etmədilər. Bilirsiniz, neft gəlirləri bir tərəfdən kömək edir, amma digər tərəfdən də müəyyən sahələrin inkişafının arxa planda qalmasına səbəb olur. Düşünürəm ki, bölgələrdə kənd təsərrüfatı məhsullarının emalı üçün müəssisələr yaradılmalıdır. Məsələn, bu il pomidorun Rusiyaya ixracında problemlər yarandı. Əvvəl Qubada və Xaçmazda 3-4 kiçik emal müəssisəsi var idi. İnsanlar məhsullarını sata bilmədiyi hallarda, emal müəssisələri bu problemi aradan qaldırırdılar. İndi cəmi bir müəssisə var ya, yox... Bu sahələrə diqqət yetirilməli və urbanizasiya proqramları hazırlanmalıdır ki, insanlar şəhərlərə köçməsin, rayonlarda qalsınlar.

Rayonlarda yol çəkilişi, qaz, işıq, su problemləri müəyyən qədər həll olunub. Məsələn, Qonaqkənddə yol çəkilib və ətraf kəndlər üçün şərait yaxşılaşdırılıb deyə insanlar ora köçməyə başlayıblar. Kənd təsərrüfatı ilə məşğul olmaq və idarəetmə sistemində dəyişikliklər aparmaq vacibdir. Gömrük və vergi sistemləri təkmilləşdirilməli və əlçatan olmalıdır ki, insanlar vergilərini rahat ödəyə bilsin. Bahalaşma məsələsi də ciddi diqqət tələb edir. Digər tərəfdən, icra hakimiyyəti sistemi özünü doğrultmadı. 70-dən çox rayonun icra başçılarının fəaliyyəti nəzərdən keçirilməlidir. İqtisadi rayonlar üzrə Prezidentin xüsusi nümayəndəliklərinə ehtiyac var. Bələdiyyələrin statusuna gəlincə, Türkiyə modelinə uyğun bir sistem yaratmaq olar. Mən hesab edirəm ki, Qarabağ məsələsi həll olunduğu üçün bu islahatlara başlanacaq.

***- Referendum gözləyirsiniz?***

- Referendum olmalıdır. Müəyyən islahatlar aparılmalı, icra hakimiyyəti sisteminin iqtisadi zonalar üzrə nümayəndəliklərlə əvəzlənməsi prosesi həyata keçirilməlidir.

***- Bahalıqdan danışdınız. Onun əsas səbəbləri nələrdir?***

- Əsas səbəblərdən biri monopoliya ilə bağlıdır. Müəyyən sahələrdə, vergi və gömrük sistemlərində ciddi islahatlara ehtiyac var. Bu islahatlar aparılmalı, insanların bazara çıxışı asanlaşdırılmalıdır. Fermerlərin əsas məqsədi məhsulu istehsal etmək və onu satmaqdır. Lakin bu sahədə böyük problemlər var. Vaxtilə dövlət kooperativ təşkilatlar yaratmışdı. Bu təşkilatlar məhsulu alır, gətirir və satırdı. Məqsəd o idi ki, bazara müdaxilə etmədən məhsulu sata bilsinlər. İndi bir neçə ticarət mərkəzi yaranıb və orada müəyyən sərbəstlik təmin edilməlidir ki, insanlar məhsullarını rahat təhvil verə bilsin. Məsələn, bu il Qubada və Xaçmazda məhsulun satılması ilə bağlı ciddi problemlər yaşandı. Lənkəran, Astara və Gədəbəy zonalarında da kartof satışında problemlər oldu. Bu məsələlər Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərinin nəzarətində olmalıdır.

***- Keçmiş maliyyə naziri Saleh Məmmədovun qeyd etdiyinə görə, ölkədə iqtisadiyyata investisiyalar 2014-cü səviyyəsində qalıb. O, mərhum Heydər Əliyevin 1970-ci illərdəki investisiya siyasətini nümunə göstərir; daxildə zavodlar tikmək, vəsaitləri xarici banklardan gətirib istehsala yönəltmək və s. Bu təklifi necə qiymətləndirirsiniz?***

- Banklarda kredit faizləri yüksəkdir. Əhaliyə verilən vəsaitlərin üç əsas mənbəyi var: birincisi Mərkəzi Bankın ehtiyatları, ikincisi xalqın əmanətləri, üçüncüsü bəzi bankların xarici maliyyə qurumlarından cəlb etdiyi vəsaitlər. Bu gün kreditlər 18-20% civarındadır. Bu faizləri qaytarmaq sahibkarlar üçün böyük problem yaradır. Mərkəzi Bankın sədri Taleh Kazımov bu vəzifəyə təyin olunduqdan sonra islahatlar aparıldı və bir çox problemlər aradan qaldırıldı. İnflyasiyanın qarşısının alınmasında Mərkəzi Bankın rolu böyükdür, manatın məzənnəsi qorunub. Amma bununla belə daxili investisiyalar artırılmalıdır. Azərbaycanın ehtiyatları 60 milyard dollardan çoxdur. Bu vəsaitdən 3-5 milyard manatını aşağı faizlə fermerlərə yönəltmək mümkündür ki, kənd təsərrüfatı inkişaf etsin.

Həmçinin, sənaye sahələri genişləndirilməlidir. Azərbaycan keçmişdə neft maşınqayırması sahəsində inkişaf etmişdi, SSRİ-nin avadanlığının 75%-ni təmin edirdik, 27-28 ölkəyə avadanlıq satırdıq. O avadanlıqlar dünyada yalnız Amerikada, Azərbaycanda və Rumıniyada istehsal olunurdu. Eyni zamanda, bu gün dünya bazarında neftin qiymətinin aşağı salınması prosesi gedir, bu da daxili istehsal və sənaye inkişafına təsir edir. Hesab edirəm ki, daxili islahatlarla - kənd təsərrüfatı ilə sənayeni inkişaf etdirməklə iqtisadiyyatı gücləndirə bilərik.

> “İnsana iş imkanları yaradılmalıdır ki, o səhər evdən çıxanda axşam uşağına çörək gətirə bilsin”

***- Yekunda perspektivi necə görürsünüz, nikbinsiniz, yoxsa?...***

- Mən nikbinəm. Çalışıram ki, millət yaxşı yaşasın. Həmişə “uşaq pulu” məsələlərinə və müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmişəm. Deputat olan vaxtı mənə deyirdilər ki, nəyə lazımdır bu “uşaq pulu”?! Bu gün Azərbaycanda yalnız 5 uşaqlı ailələrə “uşaq pulu” verilir. Gəlin görək, ölkədə nə qədər ailədə 5 uşaq var? Əksəriyyəti 1-2 uşaqlı ailələrdir. Fikrimcə, bu rəqəmi 3 uşağa salmaq lazımdır. Biz niyə “uşaq pulu” verməyək? Axı bizim özümüz də elə “uşaq pulu” ilə böyümüşük. Müharibə veteranlarına niyə 80 manat verək? 3000-dən artıq şəhidimiz, 12 min qazimiz olub. Onlar da o müharibədə şəhid ola bilərdilər. Ona görə də qazilərlə bağlı məsələlərə həssas yanaşmaq lazımdır. Mənə elə gəlir ki, bu məsələlər tam şəkildə ölkə başçısına çatdırılsa, o bunların hamısını aradan qaldırar.

**Elçin Rüstəmli**
**Elvin Bəyməmmədli**

**Rusiya işğalçı ordusunun sentyabrın 7-də Ukraynaya kütləvi hava hücum zamanı ilk dəfə Ukrayna Nazirlər Kabinetinin binasını vurması əksər müşahidəçilər tərəfindən birmənalı qarşılanmır. Maraqlıdır ki, Baş nazir Yuliya Sviridenkonun kabineti məhz zərbə endirilən mərtəbədə yerləşir. Bu faktdan çıxış edən bəzi ekdpertlər hadisənin təsadüf omadığını, bunun Ukrayna rəhbərliyi və ABŞ üçün siqnal olduğunu qeyd edirlər.**



# Putinin Trampa cavabı...

## Ukrayna Nazirlər Kabinetinin vurulması ABŞ-a mesaj kimi qəbul edilir; "Bu, olduqca təhlükəli siqnaldır..."



Baş nazir Yuliya Sviridenko özü binadakı dağıntılar fonunda şəkil çəkərək paylaşıb və əlavə edib: "Binaları bərpa edəcəyik. Amma itirilmiş insanları geri qaytarmaq mümkün deyil. Düşmən ölkənin hər yerində hər gün insanlarımızı terror edir və öldürür".

Müharibə başlayandan bəri ən kütləvi raket və PUA hücumlarından biri hesab edilən bu hücumun Kiyevin mərkəzinə - hökumət, parlament və Prezident Ofisi binalarının yerləşdiyi ərazilərə tuşlanması bir yandan Ukaraynanı növbəti dəfə, özü də daha "dərin" şəkildə cəzalandırılması kimi qəbul olunursa, digər tərəfdən də Kremlin ilk növbədə ABŞ Prezidenti Donald Trampın sülhlə bağlı bütün səylərini və şəxsi "xarizmasını" sıfırlamaq cəhdi kimi görünür.

Məsələn, "The Telegraph" yazıb ki, son hücum Vladimir Putinin müharibəni bitirmək istəmədiyini, əksinə eskalasiyanı daha da artırmağa hazır olduğunu nümayiş etdirir.

Doğrudan da, sülhə, danışıqlara hazır olduğunu bəyan edən bir ölkə rəhbərinin öz ordusuna Kiyevin mərkəzini vurmaq əmrini verməsi paradoks yaradır. Doğrudur, bir çoxları hökumət binasının Ukrayna HHM sistemləri tərəfindən vurulan "Şahed"-lərdən, yaxud raketlərdən birinin qalıqlarının düşməsi nəticəsində zədələndiyini düşünürlər. Digər versiyaya görə, PUA Ukrayna elektron döyüş sistemlərinin təsiri nəticəsində kursunu dəyişərək, binaya tuş gələ bilərdi. Ancaq bu, reallığı dəyişmir, faktiki olaraq, Rusiya zərbələrinin hədəfində Kiyevin mərkəzi olub ki, bu da olduqca ciddi və təhlükəli siqnaldır.

Bəzi analitiklərin fikrincə, Rusiyanın indi hökumət binasını vurması məntiqsizdir, çünki Tramp bu zərbədən sonra Vladimir Putinin ona həqiqətən müharibəni bitirmək istədiyi barədə dediklərinə böyük şübhə ilə yanaşa bilər.

Xatırladaq ki, Kiyevə bundan öncəki hücumların birində Azərbaycan səfirliyi də hədəf alınmış, səfirliyimizin binasına ziyan dəymişdi. Kiyevdəki Polşa konsulluğuna analoji hücumdan sonra isə Tramp Ukraynanı zenit-raket kompleksləri ilə təchiz etmək qərarına gəlmişdi. Lakin göründüyü kimi, nə ABŞ, nə də Qərb tərəfdaşları müharibənin dördüncü ili davam edərkən paytaxt Kiyevi belə hələ də Rusiya hücumlarından yetərincə etibarlı şəkildə qoruyacaq komplekslərlə təmin etməyib.

Təbii ki, bu zərbə təkcə hökumət binasına hücum deyil, həm də eskalasiyanın artırılması, müharibənin daha üst səviyyəyə qaldırılmasıdır. Son hava hücumu sadəcə, müharibənin başlanğıcından bəri ən kütləvi hücumlarından biri deyil. Təkcə iyun ayından bəri yeddinci dəfədir ki, eyni vaxtda 400-dən çox PUA-dan və eyni zamanda da raketlərdən istifadə edilib. Hücum dalğalarının getdikcə daha tez-tez və böyük həcmdə həyata keçirilməsi taktikası Ukrayna hava hücumundan müdafiə vasitələrinin onsuz da məhdud ehtiyatlarını tükəndirir.

Bir çox müşahidəçilərin fikrincə, Ukrayna hökumət binasının atəşə tutulması Putinin strategiyasının "balanslaşdırılmış və düşünülmüş elementidir".

Britaniyanın Moskva və Kiyevdəki keçmiş hərbi attaşesi Con Forman deyib: "Mən bunun təsadüf olduğunu düşünmürəm. Bu, daha çox Rusiyanın üstünlüyə malik olduğuna və eskalasiyanı davam etdirə biləcəyinə işarədir".

Bundan əlavə, Moskva soyuq qış öncəsi elektrik şəbəkəsini iflic etməyə çalışaraq enerji infrastrukturunu vurmağa başlayıb. Bütün bunlar sadəcə, Ukraynanı tükəndirmək strategiyasının tərkib hissəsi yox, həm də Putinlə "dostluğ" ilə fəxr edən və siyasi razılaşmalara bazarlıq, sövdələşmə prinsipi ilə yanaşan Trampa tərs şillədir.

Putinin bu hücumu onun Zelenskinin legitimliyini rədd etdiyi və hazırkı Ukrayna hökuməti ilə sülh sazişi bağlamağın qeyri-mümkün olduğunu bəyan etdiyi son çıxışı ilə tam üst-üstə düşür. Siqnallardan biri də elə budur.

Ukraynada isə ümid edirlər ki, Putinin son bəyanatları fonunda Ukrayna şəhərlərinə, o cümlədən Nazirlər Kabinetinə zərbələri nəhayət, Donald Trampın "gözünü açar" və onun sülh təşəbbüslərinin baş tutmamasının əsas səbəbkarının "dostu" Putin olduğunu anlayar. Ancaq çətin, çünki Tramp anlamaq istədiyini artıq çoxdan anlayıb...

Ukraynanınsa əlacı yalnız Rusiyaya simmetrik cavab verməsi və Moskvadakı hökumət binalarını hədəf almasıdır. Bunun üçün onun fiziki imkanlarının hansı səviyyədə olduğunu demək çətindir. Ancaq Ukrayna siyasi və hərbi rəhbərliyi indiyədək dəfələrlə cəsarət göstərərək, gözlənilməz və riskli addımlara gedib. Odur ki, Nazirlər Kabinetinə zərbə endirilməsinin təsadüfi omadığı üzə çıxsa, Kiyevin də analoji addım atacağını istisna etmək olmazg

Hələ ki, Rusiya tərəfi Ukrayna Nazirlər Kabinetinin bilərəkdən, yaxud təsadüfən vurulduğu barədə heç bir açıqlama vermir. Görünür, nə edəcəyini özü də bilməyən Trampın dişsiz və qeyri-stabil, hədəfi və məqsədi bəlli olmayan başıpozuq siyasəti fonunda Kreml özünü nəyə görəsə izahat verməyə borclu da hesab etmir. Hətta bundan sonra hansısa izahat verilsə belə, bu, növbəti yalan və Trampı ələ salmaq jestindən başqa bir şey olmayacaqg

**Cəlal MƏMMƏDLİ**

# "Finlandiya Rusiyaya hücuma hazırlaşır"

## Medvedev bu mövzuya aid "köşə yazısı" ilə çıxış edib



**Kreml Rusiya əhalisində "müharibə şizofreniyası"nı artırmaq üçün gündə bir düşmən icad etməkdə davam edir.**

Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedevin iddiasına görə, qonşu Finlandiya guya Rusiyaya hücum üçün platsdarm hazırlayır və müharibəyə hazırlıq kursu aparır.

Medvedev hətta bu mövzuya aid "köşə yazısı" ilə çıxış edib və yazı Kremlin təbliğat nəşrlərində dərc edilib.

"NATO-ya daxil olduqdan sonra Helsinki müdafiə tədbirləri adı altında Rusiya ilə müharibəyə hazırlaşmaq üçün qarşıdurma kursunu davam etdirir və görünür, bizə hücum üçün platsdarm hazırlayır", - Medvedev deyir.

O, əmindir ki, Rusiya sərhədlərində "hərbi fəallıq artır" və günahkar NATO-dur: "Şimali Atlantika Alyansı bu məsələlərdə tam iştirak edir və indi Finlandiyanın bütün beş əməliyyat mühitini: quru, dəniz, hava, kosmos və kibermekanı intensiv şəkildə mənimsəyir".

Həmçinin, Medvedevin sözlərinə görə, NATO Rusiya sərhədi yaxınlığında özünün qabaqcıl quru qüvvələrinin qərargah strukturunu yaradır və "əməliyyat vəziyyətində dəyişiklik" baş verərsə, əsgərlərin sayı briqadaya qədər 5 min nəfərə qədər artıra bilər: "Xüsusən də Rusiya ərazisindən 40 km aralıda yerləşən İvalo qəsəbəsində yeni qarnizonlar peyda olur".

Medvedevin dediklərindən belə məlum olur ki, Finlandiya 5 min nəfərlə Rusiyaya qarşı hücuma hazırlaşır.

Xatırladaq ki, Rusiyanın təkcə Ukraynadakı hərbi qüvvəsinin sayı 700 min nəfərə yaxındır...

# "Ukryana üç yerə bölünəcək..."

## Macarıstanın Baç nazirindən sensasion iddia



**Ukraynanın təhlükəsizliyinə təminat üzrə hazırkı danışıqlar nəticəsində onun ərazisi üç zonaya bölünəcək. Bunlar Rusiyanın tutduğu ərazilər, hərbisizləşdirilmiş ərazi və "Qərb zonası" olacaq.**

Bunu Macarıstan Baş Naziri Viktor Orban deyib.

Onun sözlərinə görə, hazırda Avropada təhlükəsizlik təminatları ilə bağlı aparılan müzakirələr artıq "Rusiya zonası"nın mövcudluğunu tanıyır və indi yalnız onun ölçüsü və formatı müzakirə olunur.

Orban qeyd edib ki, demilitarizasiya zonası ilə bağlı sual hələ də açıqdır: "Ukraynanın taleyi, deyəsən, həll olunub. Bu gün Avropa "zərif" şəkildə təhlükəsizlik təminatlarından danışır, lakin bu təminatlar əslində Ukraynanın bölünməsi deməkdir. Ukraynanın bölünməsinin nəticəsi Rusiya zonası, hərbisizləşdirilmiş zona və Qərb zonası olacaq. Rusiya zonası artıq mövcuddur. Bu gün müzakirələr yalnız onun neçə regionu əhatə etməsidir".

Bundan əlavə, Orban bir daha Ukraynanın Aİ və NATO-ya daxil olmasına qarşı çıxıb və bunun guya Rusiya Federasiyası ilə müharibəyə gətirib çıxaracağını, Avropa iqtisadiyyatını məhv edəcəyini qeyd edib.



# Sumqayıt sakinlərindən ölkə başçısına müraciət

“Bulvar ərazisində "ASAN Xidmət" mərkəzi istifadəyə verildi, amma...”

**Sumqayıt şəhər sakinləri adından Vəliyev Sahib Məmməd oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Baş nazir Əli Əsədova, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevə, eləcə də Sumqayıt Şəhər İcra Hakimiyyətinin Başçısı cənab Zakir Fərəcova müraciət edən şikayətçilərin məktbunu olduğu kimi dərc edirik:**

**“Cənab Prezident!**

Sizin göstərişinizlə, o cümlədən Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı cənab Zakir Fərəcovun əməyi sayəsində Sumqayıt şəhəri günü-gündən gözəlləşir, inkişaf edir.

Dövlət xidmətlərinin göstərilməsini sadələşdirmək və vətəndaş məmnuniyyətini artırmaq məqsədi ilə 2012-ci il, iyulun 13-də 685 saylı fərmanla Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaratdı və ASAN xidmət mərkəzləri də bu agentliyin tərkibinə daxil edildi. Bu agentlik vətəndaşlara bir sıra dövlət xidmətlərini bir məkanda təqdim etmək üçün yaradılmışdır.

Möhtərəm Prezidentimizin göstərişləri və cənab Zakir Fərəcovun əməyi hesabına Sumqayıt sakinləri üçün böyük əraziyə malik gözəl Bulvar salınmışdır. Bulvar ərazisində məskunlaşan sakinlərin və buradakı binaların çoxluğundan buranı Yeni Sumqayıt şəhəri adlandırırlar. Bu səbəbdən, Sumqayıtın Bulvar ərazisində 2-ci ”ASAN Xidmət” mərkəzi istifadəyə verilmişdir.

Lakin əfsuslar olsun ki, Bulvar ərazisində yeni istifadəyə verilən 2 saylı Sumqayıt ”ASAN Xidmət” mərkəzində kommunal xidmətlər (işıq, qaz, su) göstərilmir, sakinlər əziyyət çəkirlər. Bulvar sakinləri burada tikilmiş 2-ci Sumqayıt ”ASAN Xidmət” mərkəzinin kommunal xidmətlərindən yararlana bilmirlər.

Möhtərəm Cənab Prezidentimizin sayəsində ”ASAN Xidmət” mərkəzləri vətəndaş məmnuniyyətini artırmaq məqsədi istifadəyə verilib.

Nə üçün 2 saylı Sumqayıt ”ASAN Xidmət” mərkəzində əhaliyə kommunal xidmətlər (işıq, qaz, su) göstərilməsin?!

Sizlərdən artıq dərəcədə xahiş edirik, bizim müraciətimizi nəzərə alaraq, Sumqayıt şəhər Bulvar ərazisində istifadəyə verilmiş 2 saylı Sumqayıt ”ASAN Xidmət” mərkəzində əhaliyə kommunal xidmətlər (işıq, qaz, su) göstərilməsi üçün köməklik göstərəsiniz.

Əvvəlcədən Sizə minnətdarıq”.

**Hazırladı: Jalə FAMİLQIZI**

# Hüquqi nihilizm

## İnzibati məhkəmə qərarının icra olunmamasından dəyən ziyan mülki qaydada tələb oluna bilməz?

**Məhkəmə qərarlarının dövlətin adından çıxarılması, məhkəmə aktlarının məcburiliyi, icra olunmamasının qanunla müəyyən olunmuş məsuliyyətə səbəb olması Konstitusiyanın 129-cu, MPM-in 15-ci maddəsində təsbit olunub. İPM-in 116.1-ci maddəsində yazılıb: “Bu Məcəllə ilə başqa qaydanın nəzərdə tutulmadığı hallarda məhkəmə qərarlarının icrası ilə bağlı Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin və “İcra haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq maddələri tətbiq olunur”. Ali Məhkəmənin Plenumu 19.11.2021-ci ildə formalaşdırdığı inzibati məhkəmə qərarlarının icrasının təmin edilməsi təcrübəsində hətta MPM-də nəzərdə tutulan MƏHKƏMƏ AKTININ İZAH EDİLMƏSİnə baxılması vurğulanıb.**

Qanunvericilik normalarını vurğulamaqda amacımız Bakı İnzibati Məhkəməsinin (BİM) qəbul etdiyi qərarların icrasına qeyri-prosessual qadağasını, hətta tələbkarın ərizələrinin qəbulundan imtina edilməsini, ümumi məhkəmələrin, cinayət məhkəmələrinin isə BİM-ə müraciət etməyi məsləhət görməsini diqqətə çatdırmaqdır. Beləcə



2(102)-2758/2025 ID: 3139411

18.08.2025-ci il Bakı şəhəri

**QƏRARDAD**
**(işin icraata qəbul edilməsi barədə)**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Əhməd Abbas oğlu Əhmədov (məruzəçi), İspəndiyar Əsəd oğlu Şəfiyev və Vüqar Təvəkgül oğlu Həsənovdan ibarət tərkibdə,

iddiaçı Bədəlli Məğrub Ağamalı oğlunun kassasiya şikayətini nəzərdən keçirib

**MÜƏYYƏN ETDİ:**

İddiaçı Bədəlli Məğrub Ağamalı oğlu Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 13.05.2025-ci il tarixli 2(103)-3150/2025 saylı qərardadından kassasiya şikayəti vermişdir.

Kassasiya şikayəti Azərbaycan Respublikası MPM-in 402, 405 və 407-ci maddələrində nəzərdə tutulan qaydada tərtib edilməklə verildiyindən və kassasiya qaydasında baxılması üçün prosessual əsaslar olduğundan icraata qəbul edilməlidir.

Şifahi məhkəmə icraatı qaydasında baxılması üçün əsaslar müəyyən edilməmişdir.

Göstərilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 404-1, 411, 414, 415-ci maddələrinin tələblərini rəhbər tutaraq, məhkəmə

**QƏRAR VERDİ:**

İddiaçı Bədəlli Məğrub Ağamalı oğlu tərəfindən tərtib edilmiş kassasiya şikayəti icraata qəbul edilsin.

Kassasiya şikayətinə əsasən işə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında yazılı icraat qaydasında baxılacaqdır.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Əhməd Əhmədov imzaladı - 18.08.2025,
Hakim İspəndiyar Şəfiyev imzaladı - 18.08.2025, Hakim Vüqar Həsənov imzaladı - 18.08.2025
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=1087e05f2b0f4f59b5a5ea3b4ba693d5
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 004



SİSTEMİ

AXTARIŞ

| İşin nömrəsi | Daxil olma tarixi | İşin növü | İcraatın növü | Məhkəmənin adı | Hakim | İşin baxılma vəziyyəti | İşdə rolum |
|---|---|---|---|---|---|---|---|
| e-2(102)-3018/2025 | 01.09.2025 | 2. Mülki iş | Kassasiya icraatı | Ali Məhkəmə | Vüqar Həsənov | Yekun məhkəmə aktı çıxarıldı | İddiaçı |
| 2-1(103)-3882/2025 | 29.08.2025 | 2-1. İnzibati mübahisələrə dair iş | İddia icraatı | Bakı Apellyasiya Məhkəməsi | Kamran Əkbərov | İş icraatdadır | İddiaçı |
| 2(102)-2905/2025 | 19.08.2025 | 2. Mülki iş | Kassasiya icraatı | Ali Məhkəmə | Vüsalə. Baxışova | İş icraatdadır | İddiaçı |
| e-2(004)-4979/2025 | 18.08.2025 | 2. Mülki iş | İddia icraatı | Bakı Şəhəri Yasamal Rayon Məhkəməsi | Gülnar Babazadə | İş icraatdadır | İddiaçı |
| e-2(001)-5759/2025 | 14.08.2025 | 2. Mülki iş | İddia icraatı | Bakı Şəhəri Binəqədi Rayon Məhkəməsi | Səidə. Məmmədova | Yekun məhkəmə aktı çıxarıldı | Tələbkar |
| 2(103)-4958/2025 | 11.08.2025 | 2. Mülki iş | İddia icraatı | Bakı Apellyasiya Məhkəməsi | Vahid Sadıqov | İş icraatdadır | İddiaçı |
| 2(102)-2758/2025 | 07.08.2025 | 2. Mülki iş | Kassasiya icraatı | Ali Məhkəmə | Əhməd Əhmədov | Yekun məhkəmə aktı çıxarıldı | İddiaçı |

Ətraflı məlumat
Sənədlər
Əlaqəli yeni sənəd əlavə etmək
Şikayətlər
İşin tarixçəsi

**İşə baxan hakim və ya tərkib**
Əhməd Əhmədov - sədrlik edən hakim
Vüqar Həsənov - tərkib üzvü
İspəndiyar Şəfiyev - tərkib üzvü

**Tərəflər**
**Cavabdeh:** Bakı İnzibati Məhkəməsi
**İddiaçı:** BƏDƏLLİ MƏĞRUB AĞAMALI OĞLU

**İşin mahiyyəti**
Sair mülki iş - Digər

**Nəticə**
Kassasiya şikayəti qeyri-mümkün hesab edilərək geri qaytarıldı MPM-in 402.2-ci maddəsində nəzərdə tutulmayan qərardadlardan kassasiya şikayəti verildikdə

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2(105)-1182/2025 | 04.08.2025 | 2. Mülki iş | İddia icraatı | Sumqayıt Apellyasiya Məhkəməsi | Afiq Hüseynzadə | Yekun məhkəmə aktı çıxarıldı | İddiaçı |
| e-2(005)-3855/2025 | 01.08.2025 | 2. Mülki iş | İddia icraatı | Bakı Şəhəri Nərimanov Rayon Məhkəməsi | Ramin Quliyev | Yekun məhkəmə aktı çıxarıldı | İddiaçı |
| e-2-1(112)-13937/2025 | 28.07.2025 | 2-1. İnzibati mübahisələrə dair iş | | Bakı İnzibati Məhkəməsi | Miminat Hacıbəyova | İş icraatdadır | İddiaçı |

(185 iş) 1 2 3 4 5 6 7 8 9 10 ... » »»



## İnzibati məhkəmə qərarın icrasından, mülki məhkəmə icraatdan imtina edir, Ali Məhkəmə mümkün saymır

məhkəmə qərarlarının icrasına qadağa qoymaqla, Konstitusiyaya da , məhkəmə müdafiəsi hüququna da qadağa qoyulmuş olur və dolanbacdan, labirintdən çıxmaq icranın təmin olunmasına verilən ərizənin özü kimi mümkün olmur. Necə mümkün olsun, BİM artıq 30 aydır borclu ƏƏSMN tabeliyində DSMF-in Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının dayandırdığı 05.07.2017-ci il tarixli qərarın icrasının bərpasına, dəyən ziyanın ödənilməsinə tələbkarın verdiyi 1000-ə yaxın ərizəyə (ərizələrin sayını , statistikasını borclunun 43 nəfərlik 39 saylı bürosu məhkəmələrə təqdim edir(??) baxmır. Hətta elektron kabinetdən verilən ərizələrin qəbulundan dələduzluqla (bunun başqa adı varmı?) imtina edilir. PA, MHŞ yolu ilə məhkəməyə daxil olan, eləcə də birbaşa dəftərxanaya təqdim edilən ərizələr isə ( 8-1 kodu) kabinetdə yerləşdirilmir. Halbuki ərizələrin qəbulundan imtina edilməsinin etibarsız sayılması prosessual məcəllənin tələbidir və məhkəməyə, Konstitusiyaya hörmətsizlik deməkdir.

Nə isə, tələbkar ərizələrinin qəbulundan imtinadan bezib, ümumi məhkəməyə müraciət edib. Nərimanov məhkəməsi (h. Ramin Quliyev) iddianı yolverilməzliyinə görə geri qaytarıb ki, inzibati məhkəməyə müraciət edilməlidir. Qərardaddan şikayəti birbaşa kassasiya instansiyasına göndərən hakim unudub ki, tələbkar məhkəmə qərarının icrasını təkcə inzibati məhkəmədən yox, həm də ümumi məhkəmədən, hətta cinayət məhkəməsindən (CM-in 306-cı maddəsi) də tələb edə bilər. Eyni zamanda iş inzibati məhkəməyə aiddirsə, iş üzrə icraata xitam verilir, daha geri qaytarılmır. Hakim Ramin Quliyevin elementar hüquqdan xəbərinin olmaması, iddianın mümkün sayılmaması haqqında qərardadı qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi kimi preyudisial akt qüvvəsinə mindirməsi təcrübəsi ona etirazla nəticələnsə də etiraza baxılmayıb. Ali Məhkəmə (s/e Vüqar Həsənov, Bəhram Məmmədli, Sərvər Vəliyev) 03.09.2025-ci ildə tələbkar 1-ci dərəcəli Qarabağ əlilinin kassasiya şikayətinin vəkilsiz (?) tərtib edildiyinə görə mümkün sayılmaması (?) haqqında kabinetdə məlumat yerləşdirib. Konstitusiyanın mümkün sayılmaması özbaşınalığına baxın, bəyəm tələbkar kassasiya şikayəti verib ki, vəkilsiz olduğundan mümkün sayılmasın? Tələbkarın qərardaddan şikayətini birinci instansiya məhkəməsi yanlış olaraq aidiyyatın müəyyən olunması üçün kassasiya instansiyasına göndərib. Ali instansiya bu yanlışlığa qiymət vermək yerinə, (verilməyən) kassasiya şikayətini mümkün saymayıb. Halbuki qərardad ləğv edilməli, icraata xitam verilməli və BİM-ə müraciət edilməli olması göstərilməlidir. Niyə prosessual qanunvericiliyə yox, qeyri-prosessual ilişgiyə üstünlük verilir? Çünki borclu ƏƏSMN, tabeliyindəki qurumlar, XŞTMF, 39 saylı “sosial məmur bürosu” (oxuma vəkil bürosu!) məhkəmələri əlillərin , qazilərin, şəhidlərin, pensiyaçıların qanpulu müavinətləri, təqaüdləri, pensiyaları ilə satın alıb. Daha bunun başqa adı yoxdur ki!

İndi söz, Zamin Hacının sözü olmasın (ya da olsun!) əlaqədar təşkilatlarındır: BİM ərizələri qəbul etmir, ümumi , cinayət məhkəmələri ona aid olmadığını aktlaşdırır, Ali Məhkəmə mümkün saymır; bəs məhkəmə qərarının icrasını, Konstitusiyanı kim mümkün etməlidir?

Cavabı BİM-ə göndərməyin anlamı yoxdur, qəbul edilmir!(?)

**Məğrur Bədəlsoy**

**P.S. Bakı İnzibati Məhkəməsinin məhkəməyə tələbkar kimi verilən ərizələri qəbul etməməsindən bir il qabaq Nəsimi məhkəməsində iddia qaldırılıb. Hakim Əfsanə Heydərova 5 aydan sonra tələbi “bölüb”, bir hissədə baxılmamış saxlayıb, o biri hissədə icraata xitam verib ki, BİM məhkəmə deyil. Apellyasiya instansiyası da bunu qüvvədə saxlayıb. Ali Məhkəmə (s/e Əhməd Əhmədov, (həmin) Vüqar Həsənov və İspəndiyar Şəfiyev) 03.09.2025-ci ildə kabinetdə məlumat yerləşdirib ki, 1 aydır icraatda mümkün sayılan şikayət qeyri-mümkün sayılıb(??). Bunu necə anlayaq, tələbkarın heç hüququ yoxdur?**

# Sahibkarları indi də elektron tərəzi ilə soyurlar...




## Qanunsuz olaraq cərimə yazıldığını iddia edən daha bir vətəndaşımız etiraz edir: “7 000 min manat cərimə ödəmişəm, yenə qanunsuz olaraq 1200 manat cərimə yazıblar”

**Bu günlərdə Qaradağ rayonu, Korgöz qəsəbə sakini Novruzov Ramiz Yavər oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına daxil olan şikayət məktubunu dərc etmişdik. Şikayətçi qeyd edirdi ki, Ağstafa rayonu ərazisindəki elektron tərəziyə nəzarət edən şəxslər insanlara haqsız yerə cərimə yazır:**

“Mən, Novruzov Ramiz Yavər oğlu, yazaraq bildirirəm ki, Ağstafa rayonu ərazisində qurulan “AYNA”ya məxsus tərəzi sürücülərə artıq cərimə yazır.

Belə ki, tərəzi 40 ton yükü 42 ton 300 kq göstərir. Sonra da sürücüyə 600 manat cərimə gəlir. Hansı ki, mənə yazılan həmin 600 manatı ödəməyə məcbur oldum...

11.08.2025-ci il tarixində “Norum” sement zavodundan Gürcüstana qilinker yükü aparırdım. Yüküm 26 ton 60 kq idi. Bu yükə Dövlət Gömrük Komitəsi möhür vurub, əlimdə sənədlərim var. Qaradağ yol polisi postunun yanındakı elektron tərəzidən problemsiz keçmişəm. Heç bir qayda pozuntusunun olmadığını bildiriblər. Lakin Ağstafa ərazisindən keçəndə yükü 42 ton 320 kq hesablayıblar. Nəticədə 1080 manat cərimə olunmuşam. Yəni qanunsuz yerə cərimə yazılıb. Çörəkpulu üçün evdən çıxırıq, ziyanla qayıdırıq. Belə olmaz.

Mən, sizin qəzet vasitəsilə səlahiyyətli qurumlardan, hüquq-mühafizə orqanlarından xahiş edirəm, bu məsələdə mənə kömək edin. Ağstafa rayon ərazisindəki elektron tərəzi düzgün çəkmir. Məcbur qalıb, aparıb 1080 manat ödənişi də etmişəm. Amma, xahiş edirəm, bu qanunsuzluğa bir çarə qılın”.

Qeyd edək ki, dünən daha bir sürücü - Bakı şəhəri, Xətai rayon sakini Ağamirzəli Natiq Cəmil oğlu tərəfindən də “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, qeyri-qanuni yazılan cərimələri ödəməkdən artıq təngə gəlib:


AA MMC
BİLET NO: 927
PLAKA NO: 77 EH 839
MÜŞTERİ ADI: NATIQ
GİRİŞ TARİHİ: 06.09.2025
GİRİŞ SAATİ: 16:42:20
ÇIKIŞ TARİHİ: 06.09.2025
ÇIKIŞ SAATİ: 17:09:33
BRÜT: 40020
DARA: 13220
NET: 26800
ADRESİ:
MALZEME: 5X15
ŞÖFÖR ADI:
GELME YERİ:
GETME YERİ:
TELEFON:
KANTAR OPR:

“Mən, Ağamirzəli Natiq Cəmil oğlu, yazaraq şikayətimi işıqlandırmağınızı xahiş edirəm. Bildirmək istəyirəm ki, işlədiyim vaxtdan bu günə qədər qeyri-qanuni yazılmış 7 000 min manat cərimə ödəmişəm. İki gün əvvəl isə yenə 1200 manat cərimə yazıblar.

Ölkədə olan elektron tərəzilər tək mənə aid maşınların yükünü səhv çəkmir. Bundan şikayət edənlərin sayı heç də az deyil. Hər bir sahibkara 7 000, 10 000 manat civarında cərimələr yazılıb. Maşınmın yük tutumu 40 ton olduğu halda, tərəzi 43 ton göstərir. Halbuki yanlışdır.

Elektron tərəzilər ölçü götürür və icraat düzgün şəkildə həyata keçirilmədən, birbaşa sistemə daxil edilir. Bu da biz sahibkarlara qarşı haqsızlıqdır. Problem odur ki, əgər yüküm artıqdırsa, niyə yol polisi məni saxlamır, niyə artıq yükü boşaltmaq üçün istiqamətləndirmir? Niyə hərəkətə icazə verilir? Çünki, bilirlər ki, artıq yük yoxdur, elektron tərəzi səhv göstərir. Əgər saxlasalar, tənzimləmə prosesi zamanı bu səhv üzə çıxacaq.

İnzibati Xətalar Məcəlləsinin 127-ci maddəsinin müvafiq bəndlərinin heç birinə uyğun hərəkət etmirlər. Yəni maşınların hərəkəti İnzibati Xətalar Məcəlləsinin qoyduğu qayda-qanunlarla yox, AYNA ilə Yol Polisi əməkdaşlarının “yazılmamış qanunları” ilə idarə olunur.

Maddə 127-1. İriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərini aşmaqla ümumi istifadədə olan avtomobil yollarında idarə edilməsi ilə əlaqədar inzibati xəta hadisəsi elektron tərəzilər və foto və ya videoqeydiyyat funksiyalarına malik texniki vasitələrin köməyi ilə aşkar edildikdə icraatın aparılması qaydası;

127-1.1. Bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədilməsi ilə əlaqədar inzibati tənbeh vermə haqqında elektron qərar hərəkətdə olan nəqliyyat vasitəsinin çəki və kütlə parametrlərini ölçən və yol örtüyünün altında yerləşən xüsusi texniki vasitələrin (elektron tərəzilərin) məlumatları əsasında bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilir. Bütün elektron tərəzilər müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə inteqrasiya edilməlidir.

127-1.2. İnzibati tənbeh vermə haqqında elektron qərar çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərinə dair tələblərin pozulması ilə əlaqədar xüsusi texniki vasitələrin məlumatları əlavə edilməklə elektron qaydada dərhal müvafiq icra hakimiyyəti orqanının və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun ən yaxın nəzarət məntəqəsinə göndərilir.

127-1.3. Bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədildiyi nəqliyyat vasitəsi müvafiq icra hakimiyyəti orqanının əməkdaşı tərəfindən nəzarət məntəqəsində saxlanılır və inzibati tənbeh vermə haqqında elektron qərarın və xüsusi texniki vasitələrin məlumatlarının kağız daşıyıcıda surətləri nəqliyyat vasitəsini idarə edən şəxsə təqdim olunur.

127-1.4. Saxlanılmış nəqliyyat vasitəsinin çəki və kütlə parametrləri nəzarət məntəqəsində quraşdırılmış xüsusi texniki vasitələrlə saxlanılmış nəqliyyat vasitəsini idarə edən şəxsin iştirakı ilə müvafiq icra hakimiyyəti orqanının və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun əməkdaşları tərəfindən ölçülür və məlumatlar real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə ötürülür.

127-1.5. Hərəkətin davam etdirilməsi üçün yükgöndərən (daşıyıcı) tərəfindən nəqliyyat vasitəsindən normadan artıq yükün boşaldılması və yükün digər nəqliyyat vasitəsilə daşınması təmin edilməlidir.

Qubadan Bakı istiqamətində iki elektron tərəzi var - biri Gəndov ərazisində, digəri isə Gilezidə yerləşir. Hər iki tərəzi də səhv çəkir, sanki kimlərinsə cibinə işləyir.

Yük maşınının seriya nömrəsi 77-EH-839. Dövlət Yol Polisi araşdırıb baxa bilər ki, indiyə qədər mən nə qədər cərimə ödəmişəm. Əvvəllər yazılan cərimələrlə bağlı da şikayət vermişəm, amma nəticə olmayıb. Apellyasiya Məhkəməsinə qədər getmişəm. Hakim açıq şəkildə dedi ki, tapşırıq var, bu qərar yerinə yetirilməlidir. Yəni cərimə ödənilməlidir.

Axırıncı cərimənin protokol nömrəsi: YQ 30473644. Xahiş edirik, səlahiyyətli qurumlar bu məsələni araşdırıb, biz sahibkarlara kömək olsunlar”.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

**23.07.2024-cü ildə J28632 Soçi- Bakı reysinə Soçi aeroportunun, özəlliklə AZAL-ın RF-Soçi nümayəndəliyinin korrupsiyaya uğraması sonucunda reysə buraxılmamağımıza görə dəyən ziyanı daşıyıcı AZAL 14 aydır ödəməkdən imtina edir. Vətəndaşı olduğumuz, Konstitusiyanın 53-cü maddəsi ilə təminat verdiyi hüquqi müdafiəmizi və himayəmizi gerçəkləşdirməyə borclu olan Azərbaycan Respublikasının nə Xarici İşlər Nazirliyi, nə RF-dəki səfirliyi, nə diasporası, nə yerli hakimiyyət orqanları- Baş prokurorluğun beynəlxalq əlaqələr idarəsi, ombudsman, məhkəmələr pozulmuş hüququmuzun müdafiəsinə çaba göstərir.**




# AZAL Rusiya prokurorluğuna haqq ödəyir

## Beynəlxalq aktlar yerli “rüşvət qanunvericiliyindən” aşağıdadır?!

Hamısı AZAL-ın qeyri-prosessual sifarişini, yəni RÜŞVƏTİNİ vətəndaşın, insanın hüququndan üstün tutur. XİN-in xaricdə- Rusiyada müvəqqəti və daimi yaşayan Azərbaycan vətəndaşlarını hüquqi müdafiə etməsi , onları himayə etməsi Konstitusiyanın özü kimi sözdən o yana keçmir. Heç sözdə də XİN-in səsi çıxmır. Halbuki biz müalicəyə getdiyimiz Rusiyada “lotuluqla” reysə buraxılmamağımızdan 2000 manat maddi ziyan çəkdiyimizi, mənəvi ziyanın ölçüyəgəlməz olmasından, Azərbaycan vətəndaşı kimi aşağılanmaqdan XİN-ə, RF-dəki səfirliyə 14 aydır şikayət edirik, ən yaxşı halda daşıyıcı AZAL-ın özbaşınalığını müdafiə edən saxta cavabını BİRCƏ DƏFƏ olduğu kimi təkrar edib. Vətəndaşın hüququ belə qorunur? Bu günlərdə Özbəkistan Respublikasının XİN-inin hətta müraciət etməyən vətəndaşının Rusiyada “qul” adlandırılmasına kəskin reaksiyası, nota verməsi Azərbaycan XİN-ə, RF-dəki səfirliyə, AZAL-ın özünə dərs olacaqmı? Çətin, AZAL sərnişinə vurulan ziyanı ödəməmək üçün 14 aydır elektron qaydada şikayətimiz əsasında araşdırma aparan Rusiya prokurorluğunu RÜŞVƏTLƏ susdurur. Vətəndaşın hüquqi müdafiəsinə, himayə olunmasına baxın, AZAL vurduğu ziyanı ödəmək yerinə, Rusiya prokurorluğuna, Azərbaycan məhkəmələrinə haqq verir, yerli prokurorluğu, ombudsmanı, XİN-i tam hərəkətsiz duruma salıb. Nəsimi məhkəməsi (h. Ramin Xəlilov) 10 aydır cavabdehin vəkili rolunda çıxış edir, heç bir müraciətimizə, AZAL-da olan sərnişin siyahısının, kamera görüntülərinin məhkəməyə təqdim edilməsi barədə vəsatətlərimizə baxmır, dövlət hesabına vəkillə təminatımızdan qərəzlə imtina edir ki, gəlirlərimiz vurulan ziyanı ödəməyə, vəkilin haqqını qarşılamağa çatar ; işin arbitrajın həllinə verilməsini özü təklif etməli olsa da, bu hüquqa da kobud qadağa qoyub, 6 aydır 6 (??) şikayətimizi apellyasiya instansiyasına göndərmir.




Bəs AZAL niyə kamera görüntülərini, sərnişin siyahısını təqdim etmir, RF prokurorluğuna, yerli məhkəməyə rüşvət verib, əsas sübutları “qara qutu” kimi gizlədir? Çünki bu sübutlar əyani şəkildə gecikmədiyimizi, Soçi aeroportunun, AZAL-ın Azərbaycan vətəndaşlarına cinayətkar saxtalığını ortaya qoyur. Reysə “xidmətə” baxın, heç Bakı reysinin uçuş qapısı da lövhədə işıqlandırılmır, uçuşa miniyin başlanması elan edilmir. Bizim 1-ci və 2-ci dərəcəli əlil cütlüklər kimi hüququmuzun pozulmasını isə AZAL RF prokurorluğuna “bu barədə sənəd, məlumat verilməməsi” saxtalığı ilə izah edib. (Halbuki biz Azərbaycan Səhiyyə Nazirliyinin rəyini öncədən, RF-ninki qayıdanda təqdim etmişik) . Əlil cütlüyün birinə 31A, o birinə 38C yerlərinin verilməsini də RF prokurorluğu AZAL-ın Soçi aeroportundakı kassasının özəl “rüşvət xidməti” sayıb. Ən maraqlı rüşvət xidməti sərnişin siyahısı ilə bağlı olub. RF prokurorluğu bizim yerlərin “1944-cü il Çikaqo Konvensiyasına əsasən, ƏVƏZSİZ olaraq (“BEZVOZMEZDNO”) RF-dən DEPORT edilən Azərbaycan vətəndaşına verildiyini” Soçi aeroportundakı AZAL-ın rüşvətxorlarına istinadla bildirib. İndi 14 aydır bu deport edilən vətəndaşın nə kimliyi bildirilir, nə də hansı haqla 1-ci dərəcəli Qarabağ qazisinin qanpulusu hesabına uçmasına qiymət verilir. Axı bu AZAL-la RF prokurorluğunun NAĞILIDIR!

Məhkəməyə təqdim etdiyimiz RF prokurorluğunun şikayətimizə cavabını da AZAL RF-dəki nümayəndəliyi vasitəsilə saxtalaşdırıb, prokurorluqdan “əsl” cavab alıb ki, biz uçuşa 19-20 dəqiqə yox, 14-15 dəqiqə qalmış minik qapısında olmuşuq. Sual olunur: RF prokurorluğunun cavabı bizim şikayətimizə verilibsə, AZAL bu cavabı haradan əldə edib və RF prokurorluğuna cavabı “korrektə” etdirib? Elə bu “korrektə” sübut edir ki, RF prokurorluğu cavabını AZAL-ın rüşvəti ilə yazıb, indi isə AZAL ona rüşvətə uyğun cavab vermədiyinə görə “korrektorluq” etdirib. Lap tutaq ki, 14 dəqiqə qalmış minik qapısında olmuşuq, yəni bir dəqiqə gecikmişik. Axı cavabda yazılır ki, biz minik qapısında olanda artıq qapı bağlı olub, uçuş başa çatıb və bundan sonra bizim yerlərimiz RF-dən deport olunan Azərbaycan vətəndaşına verilib! Bu anlaşılmazlığı necə “korrektə” etmək olar, biz uçuşa gecikmişik, minik başa çatıb və yerlərimizdə əvvəlcədən başqaları oturub? (??) Axı həmin bizim yerimizdə oturan deport olunan şəxsin biz gecikən vaxtdan sonra uçağın bortunda ola bilməsi mümkündür! AZAL və RF prokurorluğu isə cinayətkar saxtalıqla bildirir ki, biz 6-46-da minik qapısına çatanda artıq minik başa çatıb, qapı bağlı olub və yerlərimiz də tutulub. (??) Elə bu anlaşılmazlığa görə də RF baş prokurorluğuna bu cavabdan şikayətimizə 8 aydır cavab yoxdur.

Bizim reysə buraxılmamığımıza görə daşıyıcının məsuliyyəti 12 oktyabr 1929-cu il tarixli Varşava Konvensiyası (1975-ci il Haaqa, 28 may 1999-cu il tarixli Monreal Konvensiyası ilə təkmilləşdirilib) ilə tənzimlənir. “Beynəlxalq hava daşımalarının bəzi qaydalarının unifikasiyası üçün” Konvensiyasının 22-ci maddəsinə görə, ləngimə zamanı (biz isə nəinki ləngidilmişik, heç uçuşa buraxılmamışıq) daşıyıcının məsuliyyəti hər sərnişinə münasibətdə 4150 xüsusi borcalma hüququ (yəni 4150 avroya ekvivalent valyuta) ilə məhdudlaşır.




Onu da vurğulayaq ki, sərnişinlərin ölümü halında bu məbləğ 100.000 avro təşkil edir. Yəni 25.12.2024-cü ildə Rusiyada vurulan uçaqdakı sərnişinlərin 38-inin hər birinin ailəsinə 200 min manat verilməlidir. Olayın terror olması isə əlavə ödənişlər və kompensasiya tələb edir. AZAL özü beynəlxalq sazişə uyğun bunu ödəməli, sonra RF-dən tələb etməlidir. AZAL isə beynəlxalq qanunu yox, yerli “rüşvət “qanunvericiliyini” əsas tutur.

**Məğrur BƏDƏLSOY**

# Bizim də oyunlarımız olsun...

## Yeni milli oyunların ixtiraçısı Rəsul Rəxşanlıdan Prezident İlham Əliyevə müraciət

Elm nominasiyası üzrə iki dəfə Humay milli mükafatı laureatı Rəsul Rəxşanlı milli oyun növümüzün yaradılması ilə bağlı maraqlı təkliflə çıxış edib. Hətta o, bu barədə qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə də müraciət edib. Onun müraciətini olduğu kimi dərc edirik:



**Hörmətli Prezident!**

Siz çıxışlarınızın birində demişsiniz ki, Respublikaya prezidentlik edəcəyiniz illərdə həm də Milli Olimpiya Komitəsinə rəhbərlik edəcək, bütün idman növlərinin inkişafını dəstəkləyəcəksiniz. Yaxşı olardı ki, bizdə də oyun yaradılaydı və Azərbaycan da İdman aləminə oyun vermiş ölkəyə çevriləydi.



Sizə məmnuniyyətlə bildirmək istəyirm ki, belə oyunlar yaratmaq mənə nəsib olmuşdur. Belə ki, 6 ədəd idman intellektual masaüstü oyun dəsti və oyunlar ixtira edilmiş və 4 patent (şəkil 1) alınmışdır. İdman intellektual masaüstü oyunların yaradılması üsulları haqqında təlimat, kitab tapılmadı. Təhsil aldığım və ixtiralar etdiyim zəngin kimya elminin üsullarından, reaksiya növlərindən, prinsiplərindən istifadə etmək qərarına gəldim. Axtarışlar prosesində təxəyyüldən, məntiqdən, riyaziyyatdan da faydalanmağa ehtiyac yarandı. Yaradılmış 3 idman intellektual masaüstü oyun dəsti və oyunlar böyüklər üçün nəzərdə tutulmuşdur. Oyun dəstlərinin və oyunların necə yaradılması haqqında "Olimpiya dünyası" qəzetində (4-10 mart, 18-24 mart, 8-14 aprel 2025-ci il) yazılmışdır.



Şəkil 2.

Şəkil 3.

Birincisi, 3 xanalı daş dəsti və oyunlardır. Dəst 36 ədəd daşdan ibarətdir. Xanalarda 1-dən 9-dək xal olur. Onların 9-u triplet (məsələn, şəkil 2, daşla a, b və ç) və 27-si sadə daşlardır (məsələn, şəkil 2, daşlar c, d və e). Oyun zamanı gedişlər edilərkən hər oynanılan növbəti daş əvvəkinin sağ tərəfinə paralel qoyulur. Həmin daş əvvəlkinin 1 və ya 2 xanasını tuta bilir. Özü-nün isə 1 və ya 2 xanası isə azad qalır, oyunu davam etdirməkdən ötrü (şəkil 3).

Kimyada olan izomerləşmə reaksiyasından istifadə etməklə xətti (düz) quruluşlu molekulu izo (şaxələnmiş) quruluşlu molekula çevirmək mümkündür. Birinçi dəstdəki daşları, yəni xətti (düz) quruluşlu molekulları izo (şaxələnmiş) quruluşlu molekullara çevirməklə nəyə nail olmaq mümkündür? İntellektual oyunlar aləmində analoqu olmayan oyun daşı və onun dəstini yarat-mış olarıq:



Şəkil 4.

İkinci, oyun daşları 3 guşəlidir və 36 ədəddən ibarətdir. Guşələrində 1-dən 9-dək rəqəm olur. Onların 9-u triplet (məsələn, şəkil 4, daşlar A və B) və 27-si sadə daşlardır (məsələn, şəkil 4, daşlar C və Ç). Oyun zamanı gedişlər edilərkən hər növbəti daş oynanılmışların azad qalmış guşələrinə oynanıla bilər( şəkil 5). Oyun prosesində bu cür daşlar bir-birinə eyni rəqəmli guşələrin baş-başa qoyulması ilə davam edir. 6 ədəd izodaş baş-başa qoyularkən kimyadakı benzol halqası kimi 6 guşəli halqa alınar. Halqanın yapanmasını başa çatdırmaqdan ötrü sonunçu daşı oynayan oyunçu xal qazanır. Oyun bitdikdə çox halqa yaratmış oyunçu (şəkil 5) qalib olur.

Üçüncüsü, dünyada çox geniş yayılmış və çox gəlirli backgamman oyunu ilə bağlıdır. Bu oyun XVIII əsrdə İngiltərədə yaradılıb və III əsrdə İranda hazırlanmış nərd dəstində oynanılır. Zaman ötdükcə güçlü oyunçuların bir qismində daha yüksək intellekt tələb edən backgammon oyununa tələbat üzə çıxır. Belə oyunu klassik nərd dəstində yaratmaq cəhdləri nəticəsiz qaldı, çünki onun imkanları məhduddur.



Şəkil 6.

Daha geniş imkanlara malik yeni nərd dəsti hazırlandı: -zərlər 8 üzlü, daşların sayı 40 (=20+20), xanaların sayı 32(=8x4). Yaradılmış yeni backgammon-Bakı oyunu sələfi backgammon oyunundan yüksək oyundur. Yeni nərd dəstinin imkanları geniş olduğu kimi oyun qaydalarında da fərq vardır. Backgammon-Bakı oyununda daşların ilkin düzülüşü də sələfində olduğundan (şəkil 6) fərqlidir.

Təəssüflər olsun ki, indiyədək uşaqlar üçün məxsusi idman intellektual masaüstü oyunlar yaradılmamışdır. Onlar şahmat yarışlarında iştirak etmək məcburiyyətində qalmışlar. Lakin bu oyunlarda da yalnız 8 yaşından başlayaraq iştirak edə bilirlər. İdman dünyasındakı bu boşluğu aradan qaldırmağa ehtiyac vardır. Mənim göstərdim cəhdlər uğurlu alındı. Böyüklər üçün yarat-dığım oyunların hər birinin uşaqlar üçün variantlarını hazırlaya bildim. Daşlar sadə və dəstlər-dəki sayları azdır. Oyun qaydaları analojidir.

Birinci, 3 xanalı daş dəsti və oyunlardır. Xanalarda 1-dən 3-dək xal olur. Dəst 18 ədəd daşdan ibarətdir. Daşların 3-ü triplet və 15-i sadədir. Oyun zamanı gedişlər edilərkən növbəti oynanılan hər daş əvvəkinin sağ tərəfinə paralel qoyulur. Həmin daş əvvəlkinin 1 və ya 2 xana-sını tuta bilir. Özünün isə 1 və ya 2 xanası oyunu davam etdirməkdən ötrü azad qalır.

İkinci oyun daşı 3 guşəlidir və dəsti 18 ədəddən ibarətdir. Daşların 3-ü triplet və 15-i sadədir. Guşələrində 1-dən 3-dək rəqəmlər olur. Oyun zamanı gedişlər edilərkən növbəti hər daş oynanılmışların azad qalmış guşələrinə oynanıla bilər.

Üçüncüsü, nərd dəsti və oyunları ilə bağlıdır. İlk dəfə uşaqlar üçün nərd dəsti hazırlandı: -zərlər 4 üzlü, daşların sayı 20(=10+10), xanalar 16(=4x4). Döymə (backgamon) və uzun (longgamon) oyunlarının hər birini uşaqlar iki variantda oynaya bilər.

Beləliklə, ilk dəfə olaraq məhz Azərbaycanda uşaqlar üçün idman intellektual masaüstü oyun dəstləri və oyunlar yaradılmışdır. Oyun dəstlərinin və oyunların necə yaradılması haqqında "Olimpiya dünyası" qəzetində (15-21 aprel, 29 aprel-5 may, 13-19 may 2025-ci il) məlumat verilir. Nəticədə Azərbaycan İdman aləminə oyunlar vermiş de-yure ölkəyə çevrilmişdir. Lakin İdman aləminə oyunlar vermiş de-fakto ölkə olması üçün oyunlardan ən azı biri üzrə yarış keçirilməlidir. Məhz bu halda Azərbaycan da de-fakto ölkəyə çevrilə bilər. Hindisdan (şahmata görə), İran (nərd), Misir (dama), Çin (domino), Macaristan ( kubik Rubik) və Yaponiya (go) kimi. Bu yeniliklərə görə ölkəmiz dəfələrlə Ginnesin Rekordlar kitabına düşə bilər.

**Hörmətli Prezident!**

Təbii ki, Sizin istəyinizin yüksək səviyyədə yerinə yetirilməsi haqda şəx-sən Sizə mənim ixtiraçı olaraq məlumat verməyim çox xoş olardı. Siz isə daha çox xoşlayacağınız oyuna aid seçim edə bilərsiniz. Məhz həmin oyun üzrə ilk yarış keçirilə bilər. Nəticədə Azər-baycan da İdman aləminə oyun vermiş 7-ci de-fakto ölkəyə çevrilər. Fikrimcə, belə xoş məlumatı Sizə Respublikada idman məsələləri ilə məşğul olan qurumlardan birinin başçısı ilə birlikdə çatdırmağım daha xoş olardı. Odur ki, Prezident Administrasiyası Gənclər məsələləri və idman işləri şöbəsinin müdirinə bu haqda yazılı müraciət etdim. Mənə şifahi bildirildi ki, yarışların keçi-rilməsi ilə Gənclər və İdman nazirliyi məşğul olduğundan nazirə müraciət etməyim münasib olardı. Bu ilin 8 avqust tarixində cənab Nazir nazirliyin əməkdaşlarının iştirakı ilə birlikdə mənim istəyimi dinlədi. Lakin dedi ki, oyunlarla tanış olmağa indi vaxtı yoxdur və sonrakı görüşdə bunu edəcəkdir. Sonrakı görüşün vaxtını isə təyin etmədi.

10 gündən sonra növbəti görüşün günü ilə maraqlandım. Şöbə müdiri dedi ki, mənə bildiriləcək. Avqust ayı artıq bitdi. Təəssüf ki, cənab nazir oyunlarla tanış olmaq məqsədiylə 20-30 dəqiqəlik vaxt ayıra bilməmişdir. Hətta, hansı tarixdə ayıra biləcəyi haqda da məlumat verilməmişdir.

Əlavə olaraq iftixar hissi ilə qeyd etmək olar ki, ikinci oyun dəsti oyunu ilə yarış keçirə-cəyimiz halda Azərbaycan idman aləminə iki intellektul oyun vermiş ilk ölkə olacaqdır. Üçüncü oyun dəsti oyunu ilə yarış keçirəcəyimiz halda Azərbaycan idman aləminə üç intellektul oyun vermiş ilk ölkə imici qazanacaqdır. Azərbaycana qürur verəcək digər məqam da vardır. Bala-calar üçün oyunlardan hər hansı ilə yarış keçirəcəyimiz halda Azərbaycan idman aləminə ilk uşaq oyunu vermiş ölkə İmici qazanacaqdır. Daha sonra isə iki və üç oyun vermiş fəxri ölkə adına layiq görüləcəkdir.

**Hörmətli Prezident!**

İxtira edilmiş oyunlar haqqında Sizə məlumat verməkdən ötrü məni qəbul etməyinizi rica edirəm.

**Rəsul RƏXŞANLI**

**Elm nominasiyası üzrə iki dəfə Humay milli mükafatı laureatı. Şəkillər 1-6.**

Təbii ki, Sizin istəyinizin yüksək səviyyədə yerinə yetirilməsi haqda şəx-sən Sizə mənim ixtiraçı olaraq məlumat verməyim çox xoş olardı. Siz isə daha çox xoşlayacağınız oyuna aid seçim edə bilərsiniz. Məhz həmin oyun üzrə ilk yarış keçirilə bilər. Nəticədə Azər-baycan da İdman aləminə oyun vermiş 7-ci de-fakto ölkəyə çevrilər. Fikrimcə, belə xoş məlumatı Sizə Respublikada idman məsələləri ilə məşğul olan qurumlardan birinin başçısı ilə birlikdə çatdırmağım daha xoş olardı...



## Vaqif Sultanlının "Ölüm yuxusu" kitabı Gürcüstanda dərc olundu

**Bu günlərdə yazıçı Vaqif Sultanlının "Ölüm yuxusu" adlı kitabı Tiflisdə gürcü dilində nəşr olunmuşdur. "Universal" nəşriyyatında yayınlanan, müəllifin eyniadlı povestinin, müxtəlif illərdə qələmə aldığı hekayələrinin daxil edildiyi kitabı gürcü dilinə Gülnarə Səfərova tərcümə etmişdir. Kitabın redaktoru Cemal Şoniyadır. Bu, Vaqif Sultanlının gürcü oxuculara təqdim olunan ilk kitabıdır.**

Müəllifin bədii yaradıcılığında önəmli yer tutan, indiyədək dünyanın bir çox dillərinə çevrilərək yayınlanmış "Ölüm yuxusu" povestində təsvir obyekti kimi seçilən yol çəkilişi fonunda qədim kənd məzarlığının köçürülməsi hadisəsi cəmiyyət həyatında baş verən ciddi çaxnaşma, təlatüm, qarşıdurma kimi canlandırılır. Real və şərti-metaforik üslubun qovuşuğunda təsvir olunan hadisələrin xaos bağlamında təqdimi yaradılmış obrazların fərdi xarakter cizgilərini çözməyə, mənəvi dünyasının gizlinlərini aşkarlamağa imkan verir.

Vaqif Sultanlının "Ölüm yuxusu" kitabına daxil edilmiş "Kül qəfəs", "Zolaqlı yuva", "Tərs axın" və başqa hekayələri özünə-məxsus dili, üslubu, fərqli yazı tərzi ilə seçilməkdədir. Yazıçı qələmə aldığı hekayələrdə özü də fərqinə varmadan içərisində olduğu sosial mühitin əsirinə çevrilən insanların düşüncə, həyəcan, sarsıntılarını canlandırmağa çalışmışdır.

Bütövlükdə "Ölüm yuxusu" kitabına daxil edilən əsərləri birləşdirən, ortaqlaşdıran əsas cəhət onların sosial-psixoloji və mənəvi-əxlaqi ovqata söykənməsi, mövzu-məzmun, ideya-estetik baxımdan güncəllik daşıması, çağdaş cəmiyyətdə müşahidə olunan özgələşmə, yaddaşsızlaşma, biganələşmə, gərəksizləşmə kimi ağrılı problemlərə sərt etiraz ruhu ilə seçilməsidir.

**KƏNAN**

# Elnarə Akimovanın qələmində "ədəbi fanatizm"lik...

## Və ya Məmməd İsmayılın şeirlərinin üzərindəki "gizli yalan"



**Emil Rasimoğlu**
**şair-publisist**

**Bu gün müasir dövr ədəbiyyatşünaslığının ümumi durumu, belə demək mümkünsə, "qanqren" vəziyyəti Rüstəm Kamalların, Əsəd Cahangirlərin, Vaqif Yusiflilərin, Tehran Əlişanoğluların, Elnarə Akimovaların... SƏNƏTin "mutasiyaya" uğramış (uğradılmış!) halına söykənən,.. tərkibcə ədəbi düşüncə tərzinin ibtidai mərhələsini tərk etməyən,.. gerçək ədəbi meyarların inkarından və irrasionalizmdən yoğrulan... TRAFARET YAZILARından açıq-aydın şəkildə bəllidir.**

Bu məqamda xüsusilə qeyd etməliyəm ki, ədəbiyyatşünaslığın deqradasiyasının təməlində dayanan həmin "yazıların" yaranmasına zaman - zaman ("yazı" sahiblərinə görə dəyişən) bir neçə amil səbəb olub... səbəb olur:

**BİRİNCİSİ,**
Təfəkkür olaraq kütləviləşmiş qatı aşa bilməmək, nəticədə isə gerçək ədəbi mahiyyətdən uzaqda dayanmaq AMİLİ.

**İKİNCİSİ,**
Öz fundamental idraki potensialını müəyyən "maraqlar"ın xroniki əsirinə çevirib, ədəbi prinsiplərə xəyanət etmək AMİLİ.

**ÜÇÜNCÜSÜ isə**
Sənət meyarlarını bir kənara qoyub, yanaşdığı bədii məhsulun müəllifi qarşısında psixoloji itaətkarlıq sindiromu yaşamaq və o itaətkarlıq sindiromundan doğan "ədəbi fanatizmlik" göstərmək AMİLİ.

**MƏHZ BU MƏQAMDA fikirlərimi bir az da konkretləşdirim...**

Məsələn, az öncə adını çəkdiyim Rüstəm Kamal kifayət qədər ədəbiyyata, MƏTN həqiqətlərinə, YARADICI XƏTTə bələd olan imzadı. Amma və lakin(!) öz xaraktersizliyi ucbatından(!) illərdi ki, qələmi "maraqların çarxında və çarmıxında" əsrlikdədir, necə deyərlər "can verir"...

... VƏ YAXUD DA(!) hamımızın yaxşı tanıdığı Tehran Əlişanoğlu. Adam mətnin emal və enerji mərhələsini müşahidə edib, çözə bilən, o istiqamətdə mülahizə yürütməyi bacaran şəxsdir. Amma və lakin(!) qələmi bir çox məqamlarda "ədəbi fanatizmlik"də sürgündədir...

... FİKİRLƏRİMİN BU YERİNDƏ "yazısı" haqqında söz açacağım Elnarə Akimovanın qələmində isə bütün bunların ("maraqlara" xidmət, "ədəbi fanatizmlik" və.s) hamısı yer alır. Həm də birmənalı şəkildə!..

... Demək, bu günlərdə məhz həmin Elnarə Akimovanın "ədəbi fanatizm"lik üzərində Məmməd İsmayılın şeirləri ilə bağlı qələmə aldığı rabitəsiz, eyni zamanda düşüncənin psixoloji təzimetmə manerasından qaynaqlanan, "boz ədəbiyyat"ın konservatizmliyini ifadə edən, qeyri-peşəkar təhlil mexanizminə söykənən bir "yazısını" oxudum. Sözün mənfi mənasında heyrətlənməmək mümkün deyil...

"Yazı" boyu ümumiləşmiş cümlələrlə eləcə nədən danışır (VƏ YA özünü nədən danışmağa vadar edir) Elnarə Akimova?

Gah Məmməd İsmayılın yaşantılarından, gah onun üz tutduğu mövzulardan, gah da dünyanın, dövrün gedişatından, o gedişata Məmməd İsmayılın münasibətindən söz açıb, sənətə yad olan amillərin fonunda (emosionallıqdan, populizmdən, müəllifə pərəstişdən yola çıxaraq) Məmməd İsmayılın yazdıqlarını ƏDƏBİYYAT adı altında təqdim etməyə cəhd edir. Sadəcə cəhd edir, nail olmur!..

TƏBİİ Kİ(!), bu cəhd Məmməd İsmayılın şeirləri üzərində Elnarə Akimovanın qələminin danışdığı "gizli yalandır". Bəli, "gizli yalan"!..

**Məsələn, Elnarə Akimova həmin "yazı"nın bir hissəsində qeyd edir:**

"...1990-cı ildə baş verən 20 Yanvar faciəsindən sonra bu qanlı hadisənin bədii əksini ədəbiyyatda ifadəyə çalışan və vətəndaşlıq qayəsi ilə işıqlandıran şairlərdən oldu M.İsmayıl. Faciənin baş verməsindən az sonra qələmə alınan "Bu qan yerdə qalan deyil" şeiri öz uzaqgörən notları ilə ağrının fəlsəfi-poetik dərkində bədii-estetik siqləti bu günədək qoruyub saxlayan nümunələrdəndir:

***Bir Ay adı, bir gün adı***
***Tapındığım görkün adı.***
***Yerdə qalmaz Türkün adı,***
***Yerdə qalmaz yurdun adı,***
***Yerdə qalmaz qurdun adı, -***
***Bu qan yerdə qalan deyil.***
***Bu qan yerdə qalan deyil!"***



ƏVVƏLA, Elnarə Akimova bu kimi "boz şeir"lərin eyforiyasından azad ola bilirsə(!), ÖNCƏ AZAD OLUB, daha sonra isə SƏNƏT, SƏNƏTKARLIQ rakursundan cavab versin görək nümunə kimi təqdim etdiyi Məmməd İsmayılın bu şeiri mahiyyətcə MƏTNi, yaradıcı təfəkkürü ehtiva edə bilirmi(?)... bilibmi(?)... ümumiyyətlə heç SƏNƏTdirmi?

Axı, ilin-günün bu çağında bu kimi "boz təqdimlər"ə nə hacət, Elnarə Akimova?..

... Demək olar ki, bütün çıxışlarımda yaradıcılığın aksiomatikası hesab edilən SƏNƏT NƏDƏN YAZMAQ DEYİL, NECƏ YAZMAQDIR prinsipini dönə - dönə vurğulamışam.

İNDİ Elnarə Akimova təqdim etdiyi hissəyə rəğmən deyə bilərmi ki, (həyatda, cəmiyyətdə baş verən) bir faciə mövzu olaraq Məmməd İsmayılın qələmində novatorluqla ədəbi təfəkkürdən emal olunub, BƏDİİ MƏTN halına gələ bilibmi? Əlbəttə ki, yox!

(Həmin "yazı"da sənətkarlıq nümunəsi kimi göstərilən bu kimi "boz şeir"lərdən hissələr çoxdu, hələ mən birini sizlərə təqdim etdim.)

Elnarə Akimova bilməli idi ki(!)... bilməlidi ki(!), azacıq ciddi ədəbiyyata, yaratmaq potensialının fəlsəfəsinə bələd olan istənilən bir fərd çox sərrast şəkildə müşahidə edib, fərqinə vara bilər ki, Məmməd İsmayılın şeirlərinin mahiyyətinin mənbəsi idraki qatda mövcud olan SPESİFİK YARADICI LABORATORİYAnın FÖVQƏL ENERJİ ilə vəhdəti deyil. Çünki ciddi sənətin əsasını, özülünü təşkil edən bu vahid ƏDƏBİ MEXANİZM, bu ALİ KOD Məmməd İsmayılda heç vaxt mövcud olmayıb...

Bir az da obrazlı şəkildə desək, Məmməd İsmayılın şeirlərində ədəbi düşüncənin "ibtidai icma quruluşu", ibtidai halı... daim hökm sürüb. Orada rabitəsiz səslər, ahəng, pafos, sentimentallıq... və bu kimi ibtidai mərhələnin göstəricisi olan müəyyən amillər özünü ortaya qoyub. Ona görə də bütün zamanlarda Məmməd İsmayılın qələmi SƏNƏTi ehtiva edən yetkin mətndən, irrasional düşüncə ştrixlərinin inkarında dayanan yaradıcı emalatxananın iş prinsipindən, ümumbəşəri mətn novatorluğundan birmənalı şəkildə uzaq olub...

...Düşüncələrimin yekunu olaraq, çağdaş dövr ədəbiyyatşünaslığına (eləcə də əksər ədəbiyyatşünaslara!) "ədəbi xütbə vərdişləri"ndən, hazırkı "tendensiya"dan xilas olmağı arzulayıram!..

**Redaksiyadan: Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Yazıda adları qeyd olunan yazarların hər birinə "Hürriyyət" qəzetinin səhifəsində cavab haqqı tanıyırıq.**

# Asılılıq nədir və qədimdə necə müalicə olunub?

**Müasir tibb daim psixi pozğunluqların və asılılıqların müalicəsi üçün yeni effektiv üsullar axtarır. Bunun fonunda tədqiqatçılar ənənəvi mədəniyyətlər tərəfindən əsrlər boyu istifadə edilən bitki mənşəli psixoaktiv maddələrə getdikcə daha çox diqqət yetirirlər.**

Bu maddələrdən biri də iboqaindir. İboqain psixodelik deyil, unikal təsiri olan mürəkkəb alkaloiddir. İlkin məlumatlara görə, o, beyni "yenidən işə sala" və dərin terapiya üçün fürsət pəncərəsini aça bilir.

İboqainin tarixi qədim ənənələrin, elmi kəşflərin və tənzimləyici maneələrin qarışığıdır. İboqain Qərbi Afrikada bitən "Tabernanthe iboga" kolunun kökündən əldə edilir. Qabonun yerli xalqı əsrlər boyu ondan "Bwiti" ruhani ayinlərində şəfa və vəfat etmiş əcdadların dünyası ilə ünsiyyət vasitəsi kimi istifadə edirdilər. Kiçik dozalarda iboqa kökü ovçuları həvəsləndirmək, aclıq və yorğunluqla mübarizə aparmağa kömək etdi və afrodizyak rolunu oynadı.



## Yaxud iboqain terapiyası asılı insanlar üşün xilas yoludur?

Qərb iboqain haqqında ilk dəfə



19-cu əsrdə bildi. 1939-1970-ci illərdə Fransadakı apteklər onu "Lambarene" adı ilə depressiya və yoluxucu xəstəliklər üçün stimullaşdırıcı və dərman kimi satırdılar. Lakin 1970-ci illərdə Nikson administrasiyası "narkotiklərə qarşı müharibə" elan etdi və iboqaini qadağan olunmuş maddələrin siyahısına daxil etdi. Həkimlər ondan tibbi istifadəni dayandırdılar.

Amma hadisələr iboqainin xeyrinə cərəyan etdi və bitkinin asılılıq əleyhinə xüsusiyyətləri kəşf olundu.

1980-ci illərdə iboqain Howard Lotsof sayəsində intibah yaşadı. Heroin aludəçisi təsadüfən aşkarladı ki, iboqain qəbul etdikdən sonra onun opioidlərə olan həvəsi və ağrı (lomka) simptomları yoxa çıxıb. O, bu metodu patentləşdirdi və həyatını onun təbliğinə həsr etdi. 1990-cı illərdə professor Debora Mash klinik sınaqlar üçün FDA-dan icazə aldı, lakin onlar dayandırıldı. Yalnız 2018-ci ildən bəri bitkinin psixikaya təsirinə maraq dalğasında elm adamları tədqiqatları bərpa etdilər.

### İboqain terapiyası necə işləyir?

Əsasən serotonin reseptorlarına təsir edən LSD və psilosibindən fərqli olaraq, iboqain daha mürəkkəb təsir edir. Bitki bir anda bir neçə neyromediator sisteminə təsir göstərir ki, bu da onun geniş terapevtik potensialını izah edir.

### Beynin yenilənməsi və neyroplastiklik

İboqain neyrooplastikliyi - beynin yeni sinir əlaqələri yaratmaq qabiliyyətini stimullaşdırır. Neyronların böyüməsinə və dəyişməsinə səbəb olan neyrotrofik amillərin (BDNF və GDNF) səviyyəsini artırır. Tədqiqatçılar iboqainin beynin mükafat, idrak funksiyası və qərar qəbul etmədən məsul olan bölgələrində bu prosesləri aktivləşdirdiyini göstəriblər.

İboqainin bu təsiri 72 saata qədər davam edən "neyroplastiklik pəncərəsi" yaradır. Bu dövrdə beyin öyrənməyə başlayır və yeni məlumatlara xüsusilə həssas olur. İnsan köhnə davranış nümunələrindən daha asanlıqla qurtula və sağlam vərdişlər formalaşdıra bilər. Buna görə də, iboqain ilə terapiya seansı başlıca rol oynayır.

### Asılılıq yaradan sistemlərə təsir

*İboqain asılılıq yaradan reseptorlarla birbaşa qarşılıqlı təsir göstərir;*

*opioid reseptorları vasitəsilə fiziki asılılığı və ağrı simptomlarını azaldır;*

*nikotin asetilxolin reseptorları vasitəsilə spirt və nikotinə olan istəyi azaldır;*

*NMDA reseptorlarına təsir edir, ketamin kimi ağrı sindromunun öhdəsindən gəlməyə kömək edir;*

dopamin və serotonin sistemlərinə təsir edir, antidepresan təsiri artırır və qavrayışı dəyişir.

Araşdırmalar davam etsə də, nəticələr artıq ümidvericidir.

191 xəstə üzərində aparılan araşdırmada iboqain opioidlərin ağrı simptomlarını, kokain və heroinə olan istəyi xeyli dərəcədə azaldıb, depressiya və narahatlığı azaldır.

**Hazırladı: İ.SABİRQIZI**



# Narkotikə qarşı "xoşbəxtlik hormonu"

**Narkotiki aludəçilərinin arasında maddə asılılığından xilas olduqdan sonra istifadəsiz sağlam həyata qayıtmaqda, sosiallaşmağa uyğunlaşmaqda çətinlik çəkən xeyi insan olur. Onlardan bu addımı ata bilmədikləri üçün özlərinə bəraət qazandıranlar da olur.**

Elə şəxslər də olur ki, müəyyən müddətdən sonra onların narkotiksiz həyatında qırılma olur və yenidən narkotik istfadəsinə qayıdırlar. Narkotikin "bəzəkli, rəngarəng" illuziyalarından qopan keçmiş istifadəçilərə ayıq həyat quru, sönük, maraqsız gələ bilir, həyat ona sevinc, həyəcan, maraq bəxş etmir, pessimist əhval-ruhiyyə onu tərk etmir. Onlardan bəziləri yenə "doza"nın sorağına düşür.

Doğrudur, bunu onların hamısına şamil etmək olmaz, amma belələri yox deyil. Bəs narkotikin pis olduğunu anlayan, bu vərdişin onu ölümə apardığını dərk edən şəxsləri tətikləyən nədir?

YouTube platformasında "Proyekt Dno" layihəsinin müəllifi Mixail Rıbakin mövzuya toxunaraq, bunu səsləndirir: "İş burasındadır ki, narkotik istifadəsi dövründə asılı şəxs orqanizminin neyromediator ehtiyatını, yəni xoşbəxtlik hormonu olan seratonin, dopamin, oksitosin və endorfin bazasını tükəndirir, axırına çıxır".

Məntiqlə, narkotik istifadə etdiyinə görə, orqanizm bu hormonları artıq özü istehsal etmir, çünki istifadəçi belə desək, bu funksiyanı narkotikə həvalə edir.

"Orqanizmin yenidən xoşbəxtlik hormonlarını özü istehsal etməyə başlaması, bu mexanizmi özünün işə salması üçün müəyyən vaxt tələb olunur. Bu bir ay, iki ay, altı ay, bəlkə də bir il çəkə bilər. Müasir sintetik narkotiklərin istifadəsi zamanı isə bu müddət çox uzanır. Ona görə əgər narkotiki atırsansa, sənə elə gəlirsə ki, dünya bir də heç vaxt əvvəlki kimi parlaq, rəngarəng olmayacaq, bil ki, bunlar hamısı bərpa olacaq. Bunun üçün sadəcə vaxt lazımdır", Mixail Rıbakin deyir.

Bu anda faydalı ola biləcək maraqlı fikir meydana çıxır. Bəllidir ki, hazırda "qara bazar"da sintetik narkotik artıq bitkisəl narkotikləri sıxışdırıb bazardan çıxarmaqdadır. Doğrudur, bazarda bahalı narkotiklər var, amma onların daha bahalı alıcıları olur. Kasıb, maddi imkanı daha aşağı olan əhali üçünsə nisbətən ucuz sintetik narkotiklər qiymət baxımından uyğundur. Bundan başqa, narkoticarət çətəsinin "effektiv, uğurlu" fəaliyyəti, əlaqələri yaxşı koordinasiya etməs səbəbindən narkotiklər tamamən əlçatandır. Ələlxüsus sintetik "patı", "kokos" və s.

Narkotikdən üzülüşməyə nail olanların orqanizm üçün zəruri olan xoşbəxtlik hormonları onları yenidən narkotikə qayıtmaqdan yayındırar. Deməli, insanlar bu hormonlar olan qidanı qəbul etməidirlər. Fiziki-bioloji baxımdan insanların seratonin, dopamin, oksitosin və endorfin hormonuna ehtiyaclarının ödənilməsi də çıxış yolu ola bilər ki, xoşbəxtliyi narkotikdə axtarmasınlar. Yəni bunu hansısa şəkildə qida formasında narkotiksiz təmin etmk mütləqdir.

Etiraf etməliyik ki, orqanizmimiz hormonlarla idarə olunur. Bu baxımdan insanları tərkibində çətənə olan qidalarla təmin etməklə, onların xoşbəxtlik hormonunu leqal yolla qida formasında almaları faydalı ola bilər. Hər şeydən başqa, yemək yolu ilə tərkibində çətənə olan qidaların qəbulu asılılıq yaratmır. Söhbət texniki çətənədən gedir. Bu versiya həm artıq narkotik istifadə etmiş, amma müalicə prosesində olan şəxslərin təbii qida yolu ilə ehtiyac duyduqları hormonu qida yolula almasını təmin edər. Onların asılılıqdan qopma periodunu ağrısız, rahat keçirməsinə imkan verər. Həmçinin, narkotikin "dadına baxmamış", amma risk qrupuna daxil olan əhali təbəqəsinin də belə qidalara əlçatanlığını təmin etmək onların sintetik narkotiklərə ehtiyac duymaması üçün çıxış yolu ola bilər.

**İ.SABİRQIZI**